8 iyun 2022 №43 (1916)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Tbilisi Dövlət İncəsənət Akademiyasında Nizamiyə həsr edilən sərgi açılıb

Tbilisi Dövlət İncəsənət Akademiyasında (TDİA) dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilən sərgi açılıb. TDİA və Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin birgə təşkil etdiyi sərgidə azərbaycanlı və gürcü rəssamların böyük şairin əsərləri əsasında çəkdikləri əsərlər nümayiş etdirilib.

Sərginin açılışında Azərbaycanın mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, ölkəmizin Gürcüstandakı səfiri Faiq Quliyev, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov, Gürcüstanın tanınmış mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

davamı səh. 5-də

## Dost ölkələrlə diplomatik əlaqələrin 30 illiyi münasibətilə

Ankara şəhərində Türkiyənin Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Belarus, Moldova və Ukrayna ilə diplomatik əlaqələrinin qurulmasının otuzuncu ildönümü münasibətilə rəsmi qəbul keçirilib.




Türkiyə Xarici İşlər Nazirliyi tərəfindən Prezident Administrasiyası Millət Kitabxanasında "Diplomatik münasibətlərin otuzuncu il mərasimi" devizi ilə təşkil olunan tədbirdə adıçəkilən ölkələrin Türkiyədəki səfirləri, hərbi attaşelər, Türkiyə parlamentinin deputatları, eləcə də Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının Baş katibi Sultan Raev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, digər qonaqlar iştirak ediblər.

Mərasimin açılışında Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çıxış ediblər.

Sonra Türkiyə Mədəniyyət və Turizm Nazirliyi nəzdində fəaliyyət göstərən Türk Dünyası Musiqi Topluluğunun ifasında bədii proqram təqdim olunub.

## Muğam festivalının II turu keçirilib

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində müvafiq tədbirlər planına uyğun olaraq, Şuşa rayonunun və digər bölgələrin uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin iştirakı ilə muğam festivalı keçirilir.

səh. 2

## Mədəniyyət Nazirliyi sistemində "Kommunikasiya meneceri" layihəsi

Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq, Mədəniyyət Nazirliyi sistemində həyata keçirilən islahatların tərkib hissəsi kimi "Kommunikasiya meneceri" layihəsinin icrasına başlanılıb.

səh. 2

## "Açma-yumma"dan "Pazırıq" naxışlarınadək



Tanınmış azərbaycanlı modelyer, "AFFFAİR" markasının təsisçisi Rüfət İsmayılın qədim xalça çeşniləri – "Açma-yumma", "Qarabağ", "Naxçıvan", "Ovçuluq", "Pazırıq" xalçalarının elementləri əsasında hazırladığı "Sumakh" geyim kolleksiyası Heydər Əliyev Mərkəzində nümayiş etdirilib.

səh. 8

# Çırpınırdın, Qara dəniz, baxıb türkün bayrağına...

### Türkiyə paytaxtında Əhməd Cavadın adı əbədiləşdirilib, 130 illiyi şərəfinə konsert keçirilib






Azərbaycan poeziyasının tanınmış simalarından biri, xalqımızın istiqlal mübarizəsində mühüm xidmətləri olan vətənpərvər şair və ictimai xadim, Dövlət himninin sözlərinin müəllifi Əhməd Cavadın (1892-1937) anadan olmasının 130-cu ildönümü Türkiyədə də geniş qeyd olunur.

Xəbər verdiyimiz kimi, mayın 5-də, Əhməd Cavadın doğum günündə Ankaranın Etimesqut rayonu ərazisindəki Türk Tarix Muzeyi və Parkında Azərbaycanın istiqlal şairinin heykəlinin açılışı olmuşdu.

İyunun 6-da Türkiyənin paytaxtında Əhməd Cavadın yubileyi münasibətilə silsilə tədbirlər keçirilib.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY və Etimesqut Bələdiyyəsinin işbirliyi ilə təşkil olunan tədbirlər çərçivəsində öncə Əhməd Cavadın adı verilən küçənin açılış mərasimi olub. Azərbaycanın Türkiyədəki Səfirliyinin də iştirakı ilə təşkil olunan tədbirə rəsmi şəxslər, ictimaiyyətin tanınmış simaları qatılıb.

Mərasimdə çıxış edən Etimesqut Bələdiyyəsinin başqanı Enver Demirel deyib: "Biz Əhməd Cavad kimi türk milləti üçün vacib olan dəyərləri hər zaman xatırlamalı və yaşatmalıyıq. Əhməd Cavadın adını daşıyan bu küçə ilə onun adını bir daha əbədiləşdiririk. Bu baxımdan çox xoşbəxtik...".

davamı səh. 2-də

## Azərbaycan bəstəkarlığında xüsusi yeri olan sənətkar

Xəbər verdiyimiz kimi, 31 may – 4 iyun tarixlərində Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadənin 75 illiyinə həsr edilmiş musiqi festivalı keçirildi.

Festival çərçivəsində iyunun 3-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında növbəti konsert proqramı təqdim olundu. Yubilyarın əsərlərindən tərtib edilmiş musiqi axşamına tanınmış mədəniyyət və ictimaiyyət xadimləri, xarici qonaqlar qatılmışdı.



Gecədə təbrik sözü ilə çıxış edən mədəniyyət naziri Anar Kərimov diqqətə çatdırdı ki, Firəngiz Əlizadə öz yaradıcılığı ilə milli mədəniyyətimizi Azərbaycanın hüdudlarından uzaqlarda da uğurla təmsil və təbliğ edir. Onun əsərləri xaricdə tanınaraq müasir Azərbaycan musiqisinin inikasına çevrilib: "Bu gün Azərbaycan mədəniyyəti üçün əlamətdar bir gündür. Mədəniyyətimizin inkişafında mühüm xidmətləri olan Firəngiz Əlizadənin yubileyinə toplaşmışıq. Bu gün fəxrlə deyə bilərik ki, Firəngiz xanım özünəməxsus dəst-xətti olan bəstəkar, Azərbaycan bəstəkarlıq sənətinin, klassik musiqi üslubunun zənginləşməsində əməyi olan bir şəxsiyyətdir. Firəngiz Əlizadə Azərbaycan musiqisini yüksək səviyyəyə qaldıran sənətkarlardandır".

davamı səh. 3-də

## İlmələrin rəqsi – yeni xalça kolleksiyasının təqdimatı

Heydər Əliyev Fondunun dəstəyi ilə milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin qorunub saxlanılması, inkişafı və tanıdılmasına yönələn daha bir layihə həyata keçirilib.

Layihə çərçivəsində hazırlanan "Azərbaycan xalçası – ilmələrin rəqsi" adlı yeni xalça kolleksiyası və eyniadlı kitab iyunun 3-də Heydər Əliyev Mərkəzində təqdim edilib.

"Azərbaycan xalçası – ilmələrin rəqsi" kolleksiyasına daxil olan əsərlər barədə ətraflı məlumat eyniadlı kitabda yer alıb. Nəşrdə oxuculara Azərbaycanda xalça sənətinin tarixi, bu qədim sənətin yaşadılması üzrə dövlət tərəfindən görülən tədbirlər, yeni kolleksiyanın ərsəyə gəlməsi prosesi barədə materiallar təqdim olunur.

Təqdimatda çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, Azərbaycanda xalçaçılıq sənəti əsrlər boyu xalqın məişət və mədəniyyətinin ayrılmaz hissəsi olub və bu günümüzə qədər gəlib çatıb.



Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırıqları və qayğısı nəticəsində Azərbaycanda xalçaçılıq sənətinin inkişafı sahəsində bir sıra mühüm sənədlər qəbul edilib, müxtəlif layihələr həyata keçirilib.

davamı səh. 3-də

## Azərbaycanın ilk süni intellekti "Şuşa" İstanbul rəqəmsal incəsənət festivalında

3-12 iyun tarixində İstanbulda "Dünyadakı tək davamlı enerji insan yaradıcılığıdırmı?" mövzusunda "İDSF-22" Beynəlxalq Rəqəmsal İncəsənət Festivalı keçirilir.

Festival Türkiyənin ilk süni intellekt kuratoru "Avind", qardaş ölkənin Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycanın İstanbuldakı Baş Konsulluğu, "PAŞA Bank" və "Mezo" Rəqəmsal İncəsənət Qrupunun birgə təşkilatçılığı ilə baş tutub.




Festivalda Azərbaycanın ilk süni intellekti "Şuşa"nın kompozisiyası da nümayiş olunur. Kompozisiyada Vətənimizin tarixi mədəniyyət beşiyi olan Şuşanın qədim köklərə malik incəsənət nümunələri – tarixi xalçalar, milli musiqilərimizdən ibarət parçalar süni intellekt vasitəsilə canlandırılır. "Şuşa" adı verilən süni intellekt zalında Qarabağa xas xalça motivləri incələnərək insan əli dəymədən yenidən toxunaraq izləyicilərə təqdim olunub.

Festivalın rəsmi açılış mərasimində ölkəmizin İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, "PAŞA Bank"ın baş direktoru və idarə heyətinin üzvü Cenk Eynehan və Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan çıxış ediblər.

davamı səh. 8-də

## Hacıbəyovların açdığı sənət yolu

Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa. 270 yaşlı şəhərimiz bu adı, bu şöhrəti təsadüfən qazanmayıb. Etiraf edək ki, Şuşanın Azərbaycan ədəbiyyat və mədəniyyətinə bəxş etdiyi şəxsiyyətlər olmasaydı, bu sahələrdə nəzərəçarpacaq boşluqlar olardı. Tarix boyu bu şəhər maddi nemətlərdən daha çox milli-mənəvi "nemətlər", böyük sənətkarlar yetirib.

Hacıbəyov soyadı daşıyan və milli musiqi mədəniyyətimizin inkişafına mühüm töhfələr verən neçə-neçə sənətkarımız var.

səh. 6

## Gəncədə Aşıq müsabiqəsinin yekun konserti



səh. 4

## "4.4 Qısa Tamaşalar Festivalı"nın ikinci mövsümü elan edilib

səh. 7

## "Müsyö Jordan və dərviş Məstəli şah" İsmayıllıda



səh. 4

№43 (1916)
8 iyun 2022
www.medeniyyet.az

# Gənclər Fondu Müşahidə Şurasının yeni tərkibi təsdiqlənib

Azərbaycan Respublikası Gənclər Fondunun Müşahidə Şurası yeni tərkibdə təsdiqlənib. Prezident İlham Əliyev iyunun 7-də bununla bağlı sərəncam imzalayıb.

Sərəncama əsasən, Gənclər Fondu Müşahidə Şurasının yeni tərkibi aşağıdakı redaksiyada verilib:

Müşahidə Şurasının sədri – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri.

Müşahidə Şurasının üzvləri – Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini, Azərbaycan Respublikası təhsil nazirinin müavini, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri, "Azərbaycan Tələbə Gənclər Təşkilatları" İttifaqının sədri, Azərbaycan Könüllü Təşkilatları İttifaqı İdarə Heyətinin üzvü, "Azərbaycanlı Tələbələr və Məzunlar Platforması" İdarə Heyətinin üzvü.

# "Şuşa İli" çərçivəsində şagirdlər arasında muğam festivalının II turu keçirilib

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində müvafiq tədbirlər planına uyğun olaraq, Şuşa rayonunun və digər bölgələrin uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin iştirakı ilə muğam festivalı keçirilir.



Ayrı-ayrı rayonlar üzrə seçim mərhələsindən sonra 5-6 iyun tarixlərində Bakıdakı Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin muğam festivalının II turu keçirilib.

Şagirdlərin çıxışlarını festivalın münsiflər heyəti – Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) müəllimi, Xalq artisti Gülyaz Məmmədova, ADMİU-nun Muğam sənəti kafedrasının müdiri, Xalq artisti Teyyub Aslanov və ADMİU-nun Muğam sənəti kafedrasının dosenti, Əməkdar artist Zakir Əliyev qiymətləndirib. Yaxın günlərdə festivalın qala-konserti və qaliblərin mükafatlandırılması mərasimi keçiriləcək.

# 14 saylı Musiqi məktəbinin hesabat konserti

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin 14 saylı Uşaq musiqi məktəbi "Şuşa İli"nə həsr edilmiş "Vətənim, Azərbaycanım, Şuşam!" adlı hesabat konserti ilə çıxış edib.



İdarədən bildirilib ki, şagirdlərin ifasında Azərbaycan bəstəkarlarının əsərləri, eləcə də xalq mahnıları səslənib. Xor kollektivi, "Ada" instrumental ansamblı və nağaraçalanlar ansamblı, həmçinin birinci sinif şagirdlərindən ibarət xalq çalğı alətləri ansamblının çıxışları alqışlarla qarşılanıb.

"İpək yolu" kamera orkestrinin iştirakı konsertə xüsusi rəng qatıb. Əməkdar artist Vaxtanq İmanovun bədii rəhbərliyi və dirijorluğu ilə peşəkar musiqiçilər şagirdləri həvəslə müşayiət ediblər. VII sinif şagirdi Aqşin Məmmədlinin ifasında F.Sücəddinovun "Vətən balladası" konsertin ən yaddaqalan nömrələrindən olub.

# Belarusda keçirilən festivalda Şuşa haqqında təqdimat

Belarusun Qrodno şəhərində keçirilən XIII Respublika Milli Mədəniyyətlər Festivalında Azərbaycanın mədəniyyəti təbliğ olunub.




Azərbaycanın Belarusdakı Səfirliyi və "Azərbaycan İcmaları Konqresi"nin dəstəyi ilə keçirilən festival çərçivəsində mədəniyyət paytaxtımız Şuşaya həsr olunmuş stend də nümayiş etdirilib.

Festivalda Azərbaycan diasporunun nümayəndələri mədəniyyətimizi, milli geyimlərimizi, mətbəximizi yerli sakinlərə təqdim ediblər. Qonaqlar Azərbaycan sərgisini izləyib, milli mətbəximizin təamlarından dadıblar.

Azərbaycan diasporunun Belarusda fəaliyyət göstərən "Sarı gəlin" və "Odlar yurdu" ansamblların çıxışı da maraqla qarşılanıb.

Festivalda 30-a yaxın millətin nümayəndələri öz mədəniyyətlərini və mətbəxlərini təqdim ediblər.

# "Şərq Bazarı" – səksənlərdən bu günə

## Orijinal memarlıq üslublu kompleks bərpa və yenidənqurmadan sonra istifadəyə verilib

Bakı şəhərinin Nərimanov rayonu ərazisindəki "Şərq Bazarı" kompleksi bərpa və yenidənqurmadan sonra istifadəyə verilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 6-da kompleksdə yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, "Şərq Bazarı" kompleksinin bərpa və yenidənqurması işləri icra olunarkən bir sıra nüanslara xüsusi diqqət yetirilib. Bərpa zamanı layihə komandasının qarşısında duran əsas vəzifələr ilkin konsepsiyanın qorunması və xüsusi elementlərin saxlanılması olub. "Şərq Bazarı"nın girişində kiril əlifbası ilə yazılmış orijinal yazı eyni kalliqrafiya inkişaf etdirilərək latın əlifbasına dəyişdirilib, daxildəki işarə və başlıqlar bazarın üslubuna uyğun yenidən dizayn olunub.

Bildirilib ki, bazarda 78 icarədar fəaliyyət göstərəcək. Bu isə 300 yeni iş yerinin yaranması deməkdir.

Kompleksin əsas atributu olan günbəzlər müxtəlif iaşə obyektlərinin təyinatına görə dizayn edilib. Bazara gələcək alıcıların rahatlığını təmin etmək üçün zərgərlik, əl işləri yarmarkaları, "Sandıqça" incəsənət nümunələrinin satışı bölməsi, "Tamaşa", qəlyanaltılar, kafe və restoranlar, "Sehrli bazar", emalatxanalar və sair bölmələrin hər biri ayrıca günbəz və hissələrdə cəmləşdirilib.

Qeyd edək ki, "Şərq Bazarı"nın ilkin layihələndirilməsi 1980-ci illərin məşhur memarları Uruzmaq Revazov, Pavel Yarinovski və Anatoli Bessonov tərəfindən icra olunub. Kompleks 3-ü böyük, 13-ü kiçik olmaqla 16 günbəzdən ibarətdir.

Layihələndirilməsi 1978-ci ildə, tikintisi 1980-ci ildə başlanan ticarət kompleksi 1982-ci ildə istifadəyə verilib.

Orijinal memarlıq üslubuna görə "Şərq Bazarı" 2001-ci ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilib. Bununla belə, 2017-ci ildə kompleksdə aparılmış əsaslı baxış zamanı müəyyən edilib ki, fərqli təyinatlı ticarət obyektlərinin fəaliyyəti, kortəbii formada həyata keçirilən davamlı istismar və baxımsızlıq tikilidə ciddi zədələnmələrə, çatlara, aşınmalara, korroziyaya və deformasiyalara səbəb olub.

Kompleksin istismar göstəricilərini yaxşılaşdırmaq, davamlılığını artırmaq, normal işləmə qabiliyyətini təmin etmək məqsədilə mühəndis tədbirlərinin həyata keçirilməsi zərurəti yaranıb. Bundan sonra detallı layihələndirmə prosesinə başlanılıb və 2020-ci ildə bərpa işlərinə start verilib.

Ötən əsrin 80-ci illərindən paytaxt sakinləri üçün doğma məkana çevrilən "Şərq Bazarı" kompleksi yenidən qurularaq şəhərimizin gözəlliyinə gözəllik qatıb.

# Çırpınırdın, Qara dəniz, baxıb türkün bayrağına...

## Türkiyə paytaxtında Əhməd Cavadın adı əbədiləşdirilib, kitabının təqdimatı və 130 illiyi şərəfinə konsert keçirilib

*əvvəli səh. 1-də*

Sonra Türk Tarix Muzeyi və Parkının konfrans salonunda Əhməd Cavad xatirə medallarının, şairin şeirlərindən ibarət kitabın təqdimatı olub.

Ölməz şairin ədəbi irsinin qorunub gələcək nəsillərə çatdırılmasında xidmətləri olan şəxslərə və müxtəlif qurumlara TÜRKSOY adından Əhməd Cavad xatirə medalları təqdim edilib.

TÜRKSOY-un Baş katibi Sultan Raev rəhbərlik etdiyi qurumun türk mədəni və sənət irsinin gələcək nəsillərə ötürülməsi istiqamətində səylərini davam etdirdiyini bildirərək, Əhməd Cavadın təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyası üçün mühüm şəxsiyyət olduğunu vurğulayıb. Çıxışını Əhməd Cavadın "Mən türkəm, dərin ağlım, zəkam var" misralarıyla bitirən baş katib Sultan Raev mükafata layiq görülən bütün şəxsləri və qurumları təbrik edib.

Ardınca Əhməd Cavadın şeirlərinin Türkiyə türkcəsinə tərcümələrinin yer aldığı kitabın təqdimatı, şairin həyatına və yaradıcılığına həsr olunan panel təşkil edilib. Əhməd Cavadın şeirlərini Türkiyə türkcəsinə tanınmış şair-tərcüməçi Kənan Çarboğa çevirib.

"Böyük Azərbaycan şairi Əhməd Cavadın adının Türkiyədə əbədiləşdirilməsi və şeirlərinin nəşri xüsusi əhəmiyyət daşıyır. Çünki Əhməd Cavad yalnız istedadlı şair deyil, həm də milli mücadiləmizin qəhrəman simalarındandır. Əhməd Cavadın yalnız şeirlərinin Türkiyədə yayılmasına deyil, eyni zamanda onun tarixi fəaliyyətinin, milli-azadlıq mücadiləsindəki təkrarsız rolunun da nəsillərə çatdırılmasına böyük ehtiyac var", - deyə o bildirib.



### "İncilər tök gəl yoluna"

İyunun 6-da axşam Ankarada keçirilən "Paytaxt Mədəniyyət Yolu Festivalı" çərçivəsində Türkiyə Prezident Administrasiyası Simfonik Orkestrinin konsert salonunda Əhməd Cavadın 130 illiyinə həsr olunmuş musiqi axşamı təşkil edilib.



Azərbaycanlı gənc dirijor Mustafa Mehmandarovun idarəsi ilə Prezident Simfonik Orkestrinin, TRT Ankara Radiosu Polifonik xorunun və azərbaycanlı solistlər – Xalq artisti Azər Zeynalov, Nigar Cəlilova, Orxan Cəlilov və Xəyyam Məmmədovun iştirak etdiyi "İncilər tök gəl yoluna" adlı konsert proqramı alqışlarla qarşılanıb.

Qeyd edək ki, konsertdə bəzi əsərlər ilk dəfə sənətsevərlərə təqdim olunub. Bu əsərlərdən biri – 2022-ci ildə bəstələnmiş "Turan marşı" tamaşaçıların istəyi ilə iki dəfə ifa olunub. 2 minə yaxın sənətsevərin izlədiyi konsert TRT Avaz kanalında canlı yayımlanıb.

Tədbirdə iştirak edən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva konsertdən sonra fikirlərini bölüşüb: "Bu axşam unudulmaz bir konsertin şahidi olduq. İlk öncə bu gecəni təşkil edən sənətkarlarımızı və TÜRKSOY-u təbrik edirəm. Əhməd Cavadın 130 illik yubileyini qeyd etmək üçün bu axşam zalı dolduran tamaşaçılara da minnətdarlığımı bildirirəm...".

**Mehparə Sultanova**
**Ankara**

# Mədəniyyət Nazirliyi sistemində "Kommunikasiya meneceri" layihəsinə başlanılıb

## Layihə ilkin olaraq regional mədəniyyət idarələrini əhatə edəcək

Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq, Mədəniyyət Nazirliyi sistemində həyata keçirilən islahatların tərkib hissəsi kimi "Kommunikasiya meneceri" layihəsinin icrasına başlanılıb.

Layihə Mədəniyyət Nazirliyinin strateji kommunikasiya siyasətinin nazirliyin struktur qurumları, tabe müəssisə və təşkilatlarında effektiv şəkildə həyata keçirilməsi, o cümlədən ictimaiyyətlə, media subyektləri və nümayəndələri ilə münasibətlərin möhkəmləndirilməsi, əlaqələrin genişləndirilməsi, sosial media fəaliyyətinin təkmilləşdirilməsi məqsədi daşıyır.

Layihə eyni zamanda Azərbaycan xalqının zəngin mədəniyyəti, mədəniyyət sahəsində nazirliyin, aidiyyəti müəssisə və təşkilatların fəaliyyəti, aparılan islahatlar, əlamətdar hadisə, yenilik və uğurlar barədə ölkə ictimaiyyətinin, ənənəvi mətbu imkanlarla yanaşı, müasir üsul və vasitələrlə, operativ formada məlumatlandırılması, media subyektləri ilə, ictimaiyyətlə əlaqələrin səmərəli şəkildə qurulması və nəticə etibarilə dövlət-cəmiyyət münasibətlərinin, dövlət qurumuna vətəndaş etimadının yüksəldilməsinə xidmət edir.

İlkin olaraq nazirliyin regional mədəniyyət idarələrini əhatə edən layihə çərçivəsində idarədə çalışan əməkdaşlardan hər bir idarə üzrə bir nəfər PR, media və kommunikasiya fəaliyyətinə məsul şəxs – kommunikasiya meneceri təyin olunub. Növbəti mərhələdə peşəkarlığın artırılması məqsədilə kommunikasiya menecerlərinin təlimlərə cəlb olunması planlaşdırılır. Təlimlərin ADA Universiteti tərəfindən həyata keçirilməsi nəzərdə tutulur. Proses tam yekunlaşdıqdan sonra hər bir regional idarə üzrə kommunikasiya meneceri barədə ictimaiyyətə məlumat veriləcək.

Qeyd edək ki, kommunikasiya meneceri media subyektləri ilə, ictimaiyyətlə əlaqələr üzrə məsul nümayəndə olaraq çalışdığı qurumun tədbir və layihələrinin mediada işıqlandırılmasını, qurumun fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılmasını və bundan irəli gələn digər vəzifələrin yerinə yetirilməsini, eləcə də qurumun sosial media fəaliyyətinin təşkilini təmin edəcək.

# Bakı altıncı dəfə Formula 1-i qəbul edəcək

10-12 iyun tarixində Bakıda Formula 1 Azərbaycan Qran-prisi keçiriləcək. İkiillik aradan sonra Formula 1 fanatları da, nəhayət, tribunalara qayıdır.



Məşhur avtoidman yarışı pandemiya səbəbindən 2020-ci ildə təxirə salınmış, ötən il isə azarkeşlərin iştirakı olmadan baş tutmuşdu. Sürət azarkeşlərinin səbirsizliklə gözlədiyi Formula 1 Azərbaycan Qran-prisinin həyəcanını bu il birbaşa tribunadan yaşamaq mümkün olacaq.

Bu il də bilet sahibləri Dənizkənarı Milli Park ərazisində əyləncə proqramlarına qatıla biləcəklər. Balaca azarkeşlər də darıxmayacaq. Uşaqlar və yeniyetmələr üçün xüsusi ayrılmış "Game Park" onların ürəyincə olacaq. "Game Park"da ekstremal əyləncələr olacaq.

Zonada "Upside down", "Climbing wall", "Helmet bouncy castle", "Trampoline", "Have a ride" və "Roll it" əyləncə proqramları təqdim olunacaq.

Qeyd edək ki, Bakıda Formula 1 yarışması ilk dəfə 2016-cı ildə keçirilib.

əvvəli səh. 1-də

# Azərbaycan bəstəkarlığında xüsusi yeri olan sənətkar

## Xalq artisti Firəngiz Əlizadənin yubileyinə həsr edilmiş musiqi festivalı başa çatdı

Nazir qeyd etdi ki, Firəngiz Əlizadənin yaradıcılıq fəaliyyəti, musiqi sənətimizə töhfələri dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. Bəstəkar dövlət başçısı tərəfindən "Şöhrət" və "Şərəf" ordenləri bu günlərdə isə "Prezidentin fəxri diplomu" ilə təltif edilib. Firəngiz xanımın fəaliyyəti beynəlxalq səviyyədə də yüksək qiymətləndirilib. O, UNESCO-nun "Sülh artisti" adına layiq görülən yeganə azərbaycanlıdır".

Anar Kərimov bəstəkarı yubileyi münasibətilə təbrik etdi, cansağlığı və yeni yaradıcılıq uğurları arzuladı.

Firəngiz Əlizadə nazir Anar Kərimova minnətdarlığını ifadə edərək tədbirə qatılan qonaqlara təşəkkürünü bildirdi.

Almaniyadan gələn qonaq – "Hans Sikorski" nəşriyyatının nümayəndəsi Qabriel Teşner çıxış edərək yubilyarı təbrik etdi, bəstəkarla birgə fəaliyyətlərindən məmnunluğunu dilə gətirdi.

Tədbirdə çıxış edən musiqişünas Jalə Qulamova bəstəkarın yaradıcılığı haqqında geniş məlumat verdi. Bildirdi ki, daim yaradıcılıq axtarışında olan Firəngiz Əlizadə bu gün də ənənəsinə sadiqdir. O, Azərbaycanı, doğma Vətənini böyük məhəbbətlə sevir və ona şərəflə xidmət edir. Onun əsərlərinin sədası bundan sonra da dünyanın ən məşhur konsert salonlarından gələcək. Bəstəkarın yaradıcılığı yalnız ifaçılarımız üçün deyil, musiqi elmimiz üçün də dəyərli bir mənbədir.





Yubiley gecəsi dirijor, Xalq artisti Fəxrəddin Kərimovun rəhbərliyi altında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konsert proqramı ilə davam etdi.

Proqramda əvvəlcə bəstəkarın böyük simfonik orkestr üçün "Nağıllar" əsəri səsləndi. Sonra Firəngiz Əlizadənin dünya musiqi salonlarında ən çox ifa olunan əsəri – violonçel və simfonik orkestr üçün "Mərsiyə" (solist – Marcis Kuplais, İsveçrə) təqdim olundu. Alqışlarla qarşılanan əsərin ardından əslən Latviyadan olan violonçelçi Marcis Kuplais bəstəkara yubiley hədiyyəsi olaraq latış xalq mahnısını solo ifa etdi.

Konsertin növbəti nömrəsi – bəstəkarın "İntizar" operasından Ananın ariyası Xalq artisti Gülnaz İsmayılovanın ifasında səsləndi.

Yubiley gecəsi bəstəkarın 2021-ci ildə yazdığı simfonik orkestr və elektron səslər üçün "Nizami fəzası" ("Nizami Cosmology") əsərinin Bakıda ilk təqdimatı ilə yekunlaşdı. Əsərin dünya premyerası bu ilin aprelində Londonda olub. Zəngin orkestr üslubu və möhtəşəm quruluşa malik olan əsər Azərbaycan simfonik musiqisinə dəyərli töhfədir.

Konsert bəstəkara ünvanlanan təbriklər və alqışlarla yekunlaşdı.

Qeyd edək ki, Firəngiz Əlizadənin 75 illiyinə həsr edilmiş musiqi festivalının son günü – iyunun 4-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında bəstəkarın "İntizar" operası nümayiş olundu.

**Lalə**

əvvəli səh. 1-də

# İlmələrin rəqsi – yeni xalça kolleksiyasının təqdimatı

Qeyd edib ki, "Azərbaycan xalçası – ilmələrin rəqsi" adlı yeni xalça kolleksiyası və eyniadlı kitab 8 il ərzində ərsəyə gəlib. Kolleksiya Heydər Əliyev Mərkəzində ilk dəfə nümayiş olunur: "Bu böyük bir kolleksiyadır. Biz bu kolleksiyanın bir hissəsini öncə Parisdə, UNESCO-nun qərargahında, daha sonra Kann şəhərində təqdim etmişik...".





Kolleksiyanın hazırlanmasında əməyi keçən bütün insanlara təşəkkürünü bildirən Anar Ələkbərov toxucu xanımları səhnəyə dəvət edib. Qeyd edib ki, bu toxucu xanımlar 8 il bu zəhmətə qatlaşsalar da, nəticə göz qabağındadır.

Anar Ələkbərov bu işlərin həyata keçirilməsində qayğısını əsirgəməyən Mehriban Əliyevaya təşəkkürünü bildirib. O, həmçinin layihənin ərsəyə gəlməsində Xalq rəssamı Eldar Mikayılzadənin əməyini xüsusi vurğulayıb.

Xalq rəssamı Eldar Mikayılzadə bildirib ki, dekorativ-tətbiqi sənətimizin, xüsusilə xalçalarımızın bədii xüsusiyyətlərini və texnologiyalarını dərindən bilən görkəmli sənətkar, Xalq rəssamı Lətif Kərimov Azərbaycan xalçalarına, sözün əsl mənasında, ikinci ömür verib, onların dünyada tanıdılmasına böyük əmək sərf edib: "Lətif Kərimov xalçaçılıq sənətinin başlıca bədii xüsusiyyətlərini, onların üslub xüsusiyyətlərini müəyyən edib. Azərbaycan xalçalarının dəqiq təsnifatını verib ki, bu da onun "Azərbaycan xalçası" üçcildlik fundamental kitabında öz əksini tapıb".

Qeyd olunub ki, təqdim olunan kolleksiyada "Yaranış", "Şikargah", "Xan ovu", "Cəng və barış", "Bəndi-rumi", "Şəbəkəli", "Adəm və Həvva", "Ağaclı", "Narlı", "Göllü", "Ləçək-turunc", "Dörd fəsil", "Tağlı", "Cəmadət" xalçaları, "Cənnət quşları" və "Cənnət bağı" dəstxalı – gəbələri yer alıb. Kolleksiyadakı xalçaların hər biri naxışları, ornamentləri vasitəsilə ziyarətçiyə öz mesajlarını çatdırır. "Yaranış" əsərində isə xammalın hazırlanmasından xalçanın tam ərsəyə gəlməsinə kimi bütün mərhələlər parlaq bədii dillə öz əksini tapıb. Xalçanın aşağı hissəsində əks olunan oturacaq və onun üzərindəki müxtəlif rəngli saplar, çayı içilmiş stəkanlar, qənddan, ütü, Novruz atributları və digər əşyalar təqdimatına görə çox təbii görünür. Oturacağın altında "gizlədilmiş" süpürgə, bir neçə cüt başmaq, ən nəhayət, yaranmış sakitlikdə mürgüləyən pişiyin təsviri ağır işdən sonra olan rahatlığı təcəssüm etdirir. Əlvanlığı ilə gözoxşayan xalçada 20 cür ipək sapdan istifadə olunub.

Qeyd edək ki, yeni kolleksiyanın yaradılmasında Xalq rəssamı Eldar Mikayılzadə başda olmaqla 6 rəssam və 14 toxucu iştirak edib. Təbii boyalarla rənglənən xalçalar ipək və yundan toxunub. Burada 170 rəng və çalardan istifadə olunub. Müxtəlif rəng çalarlarının əldə olunması üçün toxucular saç kimi nazik ipək ipləri açaraq bir neçə rəngdən yeni bir ip yaradıblar. Xalçaların ərsəyə gəlməsində Şəki Xan sarayı, Şəkixanovların evi, şəbəkələr, təbiətdən gələn naxışlar, zəngin flora və faunamız, təkəlduz tikmələri, zərif zərgərlik məmulatları tükənməz ilham mənbəyi olub, ilmə-ilmə xalçalarda əbədiləşərək öz əksini tapıb.

# Firəngiz Əlizadənin 75 illiyi Milli Kitabxanada da qeyd edildi

## Kitab və kompakt disklərin sərgisi

Milli Kitabxanada Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadəyə həsr olunan kitab və kompakt disklərin təqdimatı keçirildi. Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə iyunun 2-də reallaşan tədbir bəstəkarın 75 illik yubileyi münasibətilə keçirilən musiqi festivalı çərçivəsində baş tutdu.

Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək sənətkarın çoxşaxəli yaradıcılığından söz açdı. Bildirdi ki, Firəngiz Əlizadə müasir Azərbaycan musiqi mədəniyyətinin dünya miqyasında tanınmış simalarındandır. Əsərləri xarici ölkələrin böyük konsert və teatr salonlarında məşhur ifaçılar tərəfindən səsləndirilir: "O, bir bəstəkar, pianoçu, dirijor və ictimai xadim kimi beynəlxalq aləmdə böyük nüfuza malikdir. Firəngiz Əlizadə öz yaradıcılığı ilə həm də milli mədəniyyətimizi Azərbaycanın hüdudlarından uzaqlarda uğurla təbliğ edir. Əsərləri həm Vətənində, həm də xaricdə Azərbaycan musiqisinin inikasına çevrilib. Firəngiz xanımın müəllifi olduğu əsərlər yaşayacaq, heç vaxt unudulmayacaq".

K.Tahirov daha sonra dedi: "Kitabxanamızda tez-tez kitab təqdimatları keçirilir. Bu gün isə tam fərqli təqdimata – Firəngiz Əlizadənin gördüyü işlərin təqdimatına yığışmışıq. Firəngiz xanımı hər kəs tanıyır və sevir. Bir neçə gün öncə Bəstəkarlar İttifaqında sənətkara həsr edilən filmi izləyərkən onun yaradıcılığının möhtəşəmliyinin bir daha şahidi oldum".



Sonra Firəngiz Əlizadənin yaradıcılığı haqqında qısa video təqdim olundu.

Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) sədri, Xalq artisti Firəngiz Əlizadə çıxış edərək Mədəniyyət Nazirliyinə və Milli Kitabxanaya tədbirin keçirilməsində göstərdikləri diqqətə görə öz minnətdarlığını bildirdi. Bəstəkar təqdim olunan kompakt disk və kitablar haqqında iştirakçılara ətraflı məlumat verdi.

ABİ-nin katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova çıxışında dedi ki, Firəngiz xanımın bəstəkar və ictimai xadim kimi fəaliyyəti Azərbaycan dövləti tərəfindən hər zaman yüksək qiymətləndirilib. O, çoxsaylı mükafatlara, yüksək dövlət təltiflərinə layiq görülüb.

Qeyd olundu ki, bəstəkar "İntizar", "Sənin adın Dənizdir", "Ağ atlı oğlan" operalarının, "Boş beşik", "Stadt-Graniza" baletləri, "Habilsayağı", "Muğamsayağı", "Oazis", "Dərviş", "Abşeron", "Nəsimi ilahiləri", "Nizami fəzası" və s. əsərlərin müəllifidir.

Tədbirdə daha sonra Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor İmruz Əfəndiyeva, Naxçıvan Dövlət Universiteti Musiqi sənəti kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova, Əməkdar incəsənət xadimi Akif Quliyev çıxış edərək Firəngiz Əlizadəni yubileyi münasibətilə təbrik etdilər, yeni yaradıcılıq uğurları arzuladılar.

Sonda tədbir iştirakçıları Firəngiz Əlizadənin həyat və yaradıcılığını əhatə edən, Milli Kitabxananın fondunda mühafizə edilən kitabların sərgisi ilə tanış oldular.

**Savalan Fərəcov**

# Türk dünyasının mədəni əməkdaşlıq məsələləri müzakirə olunub

Beynəlxalq Türk Mədəniyyət və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Bolqarıstana səfəri çərçivəsində Qazaxıstan Respublikasının bu ölkədəki səfiri Temirtay İzbastin ilə görüşüb.

Görüşdə Türk dünyasının zəngin mədəni irsinin beynəlxalq miqyasda təbliği, bu sahədə Qazaxıstanla əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb. Səfir Türk dünyası maddi mədəni dəyərlərinin tanıdılması yönündə fondun fəaliyyətini yüksək qiymətləndirib.

Səfər çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva və TÜRKPA-nın baş katibi Mehmet Süreyya Er Türkiyənin Bolqarıstandakı səfiri Aylin Sekizkök ilə görüşüblər. Görüşdə sıx tərəfdaşlıq münasibətlərindən söz açılıb, Türk dünyasının mədəniyyəti və irsi ilə bağlı gələcək layihələrin birgə həyata keçirilməsi müzakirə olunub.



Xatırladaq ki, mayın 31-də Azərbaycan Respublikasının Müstəqillik Günü və Azərbaycanla Bolqarıstan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Sofiya Opera və Balet Teatrında Fikrət Əmirovun "Min bir gecə" baleti nümayiş olunub. Məşhur xoreoqraf soydaşımız Eldar Əliyevin quruluş verdiyi balet tamaşası Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və Azərbaycanın Bolqarıstandakı Səfirliyinin dəstəyi ilə gerçəkləşib.

# Türk Akademiyaları Birliyinə sədrlik Qırğızıstana keçib

Qırğızıstanın paytaxtı Bişkekdə Türk Akademiyaları Birliyinin iclası keçirilib. Birliyə AMEA-nın sədrliyi dövrünün hesabatı dinlənilərək müzakirə edilib. Əsasnaməyə görə, sədrliyin növbəti respublikanın akademiyasına təqdim edilməsi mərasimi keçirilib.

Bu barədə AMEA-dan məlumat verilib. Bildirilib ki, tədbiri Qırğızıstan Elmlər Akademiyasının prezidenti, akademik Murat Cumatayev açıb. Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Darxan Kıdıralı türk respublikaları akademiyalarının əməkdaşlığı və qarşıda duran vəzifələrdən danışıb.

2015-ci ildə yaradılan Türk Akademiyaları Birliyinə qəbul edilmiş əsasnaməyə uyğun olaraq, 2015-2016-cı illərdə Qazaxıstan, 2017-2018-ci ildə Türkiyə, 2019-2022-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası sədrlik edib.

İclasda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli AMEA-nın Türk Akademiyaları Birliyinə sədrliyi dövrünə dair məruzə ilə çıxış edib. Məruzədə son üç ildə akademiyalararası inteqrasiyanın genişləndirilməsi, ortaq türk mirasının beynəlxalq miqyasda tanıdılması, çap edilmiş mühüm elmi nəşrlər haqqında məlumat verilib.



Müzakirələrdə Özbəkistan Elmlər Akademiyasının vitse-prezidenti Bəhram Abduxalimov, Rusiya Federasiyası Tatarıstan Elmlər Akademiyasının prezidenti Myakzyum Salixov, Qırğızıstan Elmlər Akademiyası Humanitar elmlər bölməsinin sədri Abdıldacan Əkmətəliyev və başqaları çıxış ediblər.

Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdıralı müzakirələrə yekun vurub. Əsasnaməyə görə, Türk Akademiyaları Birliyinə 2022-2023-cü illərdə sədrlik etmək Qırğızıstan Elmlər Akademiyasına həvalə olunub. Birliyin rəmzi estafetini bildirən bəyannamə Qırğızıstan Elmlər Akademiyasının prezidenti Murat Cumatayevə təqdim edilib.

İclasda son illərdə Özbəkistanda vaxtilə müxtəlif səbəblərdən ayrı-ayrı nazirliklərə verilmiş elmi tədqiqat institutlarından bir çoxunun yenidən Elmlər Akademiyasına qaytarılması, Qazaxıstan Elmlər Akademiyasının ictimai təşkilat olaraq fəaliyyət göstərməsinin aradan qaldırılaraq, quruma dövlət statusunun bərpa olunması, Qırğızıstan Elmlər Akademiyasının fəaliyyətinin ayrıca müddəa kimi ölkənin Konstitusiyasına daxil edilməsi, Beynəlxalq Türk Akademiyası üçün xüsusi binanın tikilib istifadəyə verilməsi, ortaq tarix, ortaq ədəbiyyat və ortaq coğrafiya dərsliklərinin hazırlanması mühüm yeniliklər kimi diqqətə çatdırılıb.

İştirakçılar Qırğızıstan Elmlər Akademiyasının elmi tədqiqat institutlarında olub, Zoologiya muzeyini ziyarət ediblər. Ana Beyit panteonunda dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun məzarı da ziyarət olunub.

# Vətənin qəhrəmanları unudulmur

Biləsuvar RMİ Neftçala rayon Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidi Nicat Hüseynovun doğum günü ilə əlaqədar "Ölməz qəhrəmanlıq – şəhidlik" adlı anım mərasimi keçirilib. Çıxışlarda şəhidin döyüş yolundan söz açılıb, onun qəhrəmanlığının gənclərimiz üçün nümunə olduğu vurğulanıb.

***



Beyləqanda şəhid Rahil Şəmil oğlu Məmmədlinin xatirəsinə bulaq kompleksi inşa olunub. Rahil Vətən müharibəsinin ilk günlərindən ön cəbhədə yer alıb. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Xocavənd istiqamətində gedən döyüşlərin fəal iştirakçısı olub. 2021-ci il oktyabrın 25-də xidməti tapşırığı yerinə yetirərkən Xocavəndin Tuğ kəndi ərazisindəki qəzada həlak olub. "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları, həmçinin ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

***

Sumqayıt RMİ N.Nərimanov adına Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi Səmid Əliyevin doğum günü ilə əlaqədar "Şəhidlik ən uca zirvədir" adlı tədbir təşkil edilib.

RMİ-nin Qubadlı rayon nümayəndəliyinin təşkilatçılığı və Qubadlı Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Vətən müharibəsi şəhidi Vüsal Allahverdiyevin xatirəsinə inşa olunan abidənin açılışı keçirilib.

# Gəncədə Aşıq müsabiqəsinin yekun konserti keçirilib



Gəncə RMİ-nin təşəbbüsü, Mədəniyyət Nazirliyi və "Kəpəz" müstəqil teleradio şirkətinin dəstəyi ilə "Şuşa İli" çərçivəsində keçirilən Aşıq müsabiqəsinə yekun vurulub.

Müsabiqənin yekun konserti Gəncədəki Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət Sarayında gerçəkləşib.

Bu ilin aprel ayından başlayan müsabiqənin seçim turları Azərbaycanın aşıq sənətinin görkəmli nümayəndələri Aşıq Abbas Tufarqanlı, Aşıq Ələsgər, Aşıq Şəmşir, Mikayıl Azaflı və Xalq şairi, Aşıqlar Birliyinin sabiq sədri mərhum Zəlimxan Yaquba həsr olunub.

8-15 yaş, 15-24 yaş və 24-30 yaş kateqoriyası üzrə keçirilən müsabiqədə Gəncə və Naftalan şəhərlərindən, Goranboy, Kəlbəcər, Samux, Tovuz, Göygöl, Xocalı rayonlarından 100-ə yaxın gənc aşıq iştirak edib.

Müsabiqədə I yeri (8-15 yaş) Məhəmməd İsmayılzadə, II yeri (15-24 yaş) Vətən müharibəsi qazisi Azər Vəliyev, III yeri isə (24-30 yaş) İbadət Mehdiyev qazanıb.

Gəncə RMİ-nin rəisi Vasif Cənnətov müsabiqədə uğur qazanan aşıqları təbrik edib.

Yekun konsertdə müsabiqənin qaliblərinə fəxri fərmanlar, diplomlar təqdim olunub və Gəncə RMİ tərəfindən saz hədiyyə edilib.

# Şirvanda "Dahilər yurdu – Şuşa" tamaşası



Sabirabad RMİ Şirvan şəhər Mədəniyyət Mərkəzində "Dahilər yurdu – Şuşa" adlı tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Şirvan Dövlət Rəsm Qalereyası, Şirvan şəhər Mədəniyyət Mərkəzində fəaliyyət göstərən rəsm və yaradıcılıq dərnəkləri üzvlərinin əl işlərindən, Şuşanın tarixi və mədəniyyətini əks etdirən kitablardan ibarət sərgi ilə tanış olublar.

Şirvan şəhər 21 nömrəli tam orta məktəbin şagirdlərdən ibarət rəqs kollektivinin ifasında "Şuşanın dağları" adlı rəqs iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

Sonra Mədəniyyət Mərkəzində həvəskar rejissor-ssenarist Elşən İsmayılın "Dahilər yurdu – Şuşa" adlı tamaşası nümayiş olunub. Şuşanın tarixi, görkəmli şəxsiyyətləri, tanımış ziyalıları haqqında məlumat və epizodlar tamaşaçılarda Şuşanın keçmişi və bu günü barədə geniş təəssürat yaradıb.

Sonda Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə və Şirvan Şəhər İcra Hakimiyyətində şöbə müdirinin müavini Adəm Hüseynov aktyor heyəti ilə görüşərək onları təbrik edib, yaradıcılıq uğurları arzulayıblar.

# "Müsyö Jordan və dərviş Məstəli şah" İsmayıllıda nümayiş olunub



İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində "Şuşa İli" münasibətilə bu il anadan olmasının 210 illiyi qeyd edilən Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının tamaşası nümayiş olunub.

Səhnə əsərinin rejissoru Elşən Salehov, quruluşçu rəssamı Malik Ağayev, səs operatoru Süleyman Yaqubov, səs rejissoru Maqsud Kərimovdur.

Mədəniyyət Mərkəzinin İsmayıl bəy Qutqaşınlı adına Xalq teatrının kollektivi tərəfindən səhnələşdirilən tamaşada Gündüz Mürşüdlü (Müsyö Jordan), Xəyal Gəncimov (Hatəmxan ağa), Afət Əliyeva (Şəhrəbanu), Aişə İbrahimova (Şərəfnisə), Cəhanə Əzizli (Gülçöhrə), Leyla Zakirova (Xanpəri), Nihat Cəlilzadə (Şahbaz), Elşən Salehov (dərviş Məstəli şah), Müsavər Qasımov (Qulaməli) çıxış ediblər.

Tamaşadan sonra RMİ-nin rəisi Elçin Nəcəfov teatr kollektivi ilə görüşüb, səhnə əsəri haqqında təəssüratlarını bölüşüb. Xatirə şəkilləri çəkdirilib.

# Bölgələrdə "Şuşa İli" tədbirləri davam edir



Lənkəran RMİ-nin tabeliyində fəaliyyət göstərən Kənarmeşə kənd Sənətkarlıq evində "Əziz Şuşa, sən azadsan!" adlı ədəbi-bədii gecə keçirilib. Klub işçilərinin, kənd sakinlərinin və məktəblilərin iştirak etdiyi tədbirdə özfəaliyyət dərnəyinin üzvləri Şuşaya həsr olunmuş şeirlər, musiqilər səsləndirib, milli rəqslərimizi ifa ediblər.

***

Ağstafa RMİ Ağstafa Dövlət Rəsm Qalereyasında "Şuşa İli" münasibətilə regional idarənin təşkilatçılığı ilə keçirilən müsabiqəyə təqdim olunmuş rəsm əsərlərinə münsiflər heyəti tərəfindən baxış keçirilib. Müsabiqədə iştirak üçün dərnək üzvlərindən Yasəmən Almərdanlı, Adif Əliyev və Nərmin Əliyevanın rəsm əsərləri təqdim edilib.

***



Masallı RMİ Cəlilabad rayon Kövüzbulaq kənd Mədəniyyət evində "Əziz Şuşa, sən azadsan!" adlı tədbir keçirilib. Tədbirdə Cəlilabad rayon Mədəniyyət Mərkəzinin direktoru Ramil İbrahimov çıxış edərək "Şuşa İli"nin əhəmiyyəti haqqında danışıb.

***

Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin Səməd Vurğun adına Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə "Şuşa İli"nə həsr olunan istedadlar müsabiqəsi keçirilib. Müsabiqədə Dəniz İsmayılzadə I, Zəhra Məmmədzadə, Dilbər Məmmədova II, Kərəm Arifzadə, Rüfət Cabbarlı, İsmayıl Əsədzadə və Nigar Afilova III yerə layiq görülüblər.

Sumqayıt şəhər Ə.Bakıxanov adına 1 nömrəli Uşaq incəsənət məktəbi "28 May" Mədəniyyət evində "Xarıbülbül" adlı hesabat konserti təşkil edib.

N.Nərimanov adına Mədəniyyət Mərkəzinin şəhər Mədəniyyət evi isə Abşeron rayonu Novxanı qəsəbə Sənətkarlıq klubu ilə birgə "Şuşa mədəniyyətinin inciləri" adlı ədəbi-bədii gecə keçirib.



Abşeron rayon Qobu qəsəbə Uşaq incəsənət məktəbində "Bura Vətəndir!" adlı tədbir təşkil olunub. Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev çıxışında Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan olunmasından söz açıb. Tədbirin bədii hissəsində maraqlı kompozisiyalar nümayiş olunub.

Sumqayıt RMİ-nin əhatə etdiyi Şuşa rayon Xəlfəli kənd Uşaq musiqi məktəbinin və Şuşa şəhər Bülbülcan adına Uşaq musiqi məktəbinin hesabat konsertləri keçirilib. Şuşa rayon Malıbəyli kənd Uşaq musiqi məktəbində isə "Şuşa inciləri" adlı tədbir keçirilib. Tədbirdə idarə rəisinin müavini İlham Əhmədov və Şuşa rayonu üzrə baş məsləhətçi Bayram Cəfərli çıxış ediblər.

***

Gəncə RMİ və Samux Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Qələbəyə gedən yol" adlı tədbir keçirilib. Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev və Gəncə RMİ-nin rəisi Vasif Cənnətovun da iştirak etdiyi tədbirdə Samux rayon Sərkar kənd Uşaq musiqi məktəbinin xalq çalğı alətləri orkestri, xor kollektivi və "Şur" instrumental ansamblının ifasında musiqi nömrələri səsləndirilib.

***



Şəki Regional Mədəniyyət İdarəsi (RMİ) Zaqatala rayon MKS və Zaqatala Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Vətən ürəyi Şuşa gənc rəssamların gözü ilə" adlı rəsm sərgisi açılıb. Sərgidə kitabxananın oxucularının və qalereyanın rəsm dərnəyi üzvlərinin əl işləri və Qarabağ mövzusuna aid kitablar nümayiş olunub.

Zaqatala rayon Uşaq incəsənət məktəbinin kollektivi "Şuşaya qayıdış" adlı konsert proqramı ilə Oğuz rayon Uşaq musiqi məktəbinin qonağı olub.

***



İsmayıllı RMİ Şamaxı Mədəniyyət Mərkəzində "Əziz Şuşa, sən azadsan!" adlı tədbir keçirilib. Tədbirdə şəhər 3, 9 və 10 saylı tam orta məktəblərin şagirdlərinin hazırladığı şeir və musiqili kompozisiya, rayonun tanınmış incəsənət ustalarının konsert proqramı maraqla qarşılanıb.

**Hazırladı: N.Məmmədli**

Ağdaş RMİ Zərdab rayon Heydər Əliyev Mərkəzində 15 İyun – Milli Qurtuluş Günü münasibətilə mərkəzdə fəaliyyət göstərən "Gənc Heydər Əliyevçilər" məktəbinin şagirdlərinə "Gələcək nəsillərin Heydər Əliyev ideyaları ruhunda tərbiyə etmək müstəqilliyimizi qorumaq, Vətəni, xalqın işıqlı gələcəyini təmin etmək deməkdir" mövzusunda məşğələ keçirilib.

***



Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzində Milli Qurtuluş Günü ilə əlaqədar "Qurtuluş tariximiz" adlı sərgi təşkil edilib. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən foto, kitab və jurnallardan, eləcə də dövlət rəmzlərini əks etdirən əl işlərindən ibarət sərgi iyunun 16-dək açıq olacaq.

***

Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzində XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, repressiya qurbanı Mikayıl Müşfiqin (1908-1938) doğum günü (5 iyun) ilə əlaqədar "Ah, mən gündən-günə bu gözəlləşən, işıqlı dünyadan necə əl çəkim?!" adlı tədbir keçirilib. Şagirdlər şairin şeirlərini səsləndirib, M.Müşfiqin həyat və yaradıcılığı haqqında videoçarx nümayiş olunub.

***

Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev Xızı rayonunun mədəniyyət müəssisələrində olub. O, Heydər Əliyev Mərkəzinə, Mikayıl Müşfiq Muzeyinə, Xızı rayon MKS-nin Tıxlı kənd kitabxana filialına, kənd klubu və Altıağac qəsəbə Diyarşünaslıq evinə baxış keçirərək müəssisələrin fəaliyyəti ilə tanış olub və müvafiq tapşırıqlar verib. Xızı rayon Heydər Əliyev Mərkəzində idarə rəisinin Xızı rayon nümayəndəliyinin əməkdaşları ilə görüşü keçirilib.

# Görüş, sərgi, konsert...

İdarə rəisi Xızı rayon Mikayıl Müşfiq Muzeyində nakam şairin anadan olmasının 114-cü ildönümünə həsr olunan tədbirdə də iştirak edib. Tədbirdə Rəşad Əliyev, Milli Məclisin deputatı Müşfiq Məmmədli və başqaları Mikayıl Müşfiqin yaradıcılığından söz açıblar.

Sumqayıt şəhər MKS-nin Mərkəzi Uşaq Kitabxanasının əməkdaşları 5 iyun – Dünya ətraf mühitin mühafizəsi günü münasibətilə Nəsimi parkında "Biz təbiətin dostlarıyıq" adlı təmizlik aksiyası keçirib.

***



Bərdə RMİ-nin təşkilatçılığı ilə Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissədə konsert proqramı təşkil edilib. Tədbirdə çıxış edən idarə rəisi Vəsilə Möhsümova işğaldan azad edilmiş torpaqlarda hərbçilərlə görüşlərin keçirilməsi və onlara mədəni xidmət göstərməyin qürurverici olduğunu bildirib. Təqdim olunan konsert proqramı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

***

Şəki RMİ Balakən rayon MKS-nin Mazımçay kənd kitabxana filialı Heydər Əliyev Mərkəzində "İnsan hüquqları aylığı" (18 may – 18 iyun) çərçivəsində kitabxananın fəal oxucuları ilə görüş keçirilib. Çıxışlarda bildirilib ki, insan hüquqları qoruyucu təbəqə kimidir. Onlar bizə hörməti təklif edir və bizdən başqalarına hörmətlə yanaşmağı tələb edir. Hüquqlarımızı bilməli və qarşı tərəfi də bu barədə məlumatlandırmalıyıq.

***



Kürdəmir RMİ Beyləqan rayon Mədəniyyət Mərkəzində müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı Əlisəfa Azayevlə oxucuların görüşü keçirilib. Görüşdə RMİ-nin rəisi Faiq Xudanlı, AYB-nin Beyləqan şöbəsinin üzvləri, rayon ziyalıları və oxucular iştirak ediblər.

***

Gəncə RMİ Kəlbəcər rayon Mədəniyyət Sarayında Azərbaycan Aşıqlar Birliyinin (AAB) Gəncəbasar bölməsinə sədr və təmsilçilərin seçimi keçirilib. Tədbirdə AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Əhmədova, Milli Məclisin deputatı Aqil Məmmədov və başqa qonaqlar iştirak ediblər.

# Qubada "Oxu bayramı"



Xaçmaz RMİ-nin əhatə etdiyi B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinin qarşısında, açıq havada "Şuşa İli"nə həsr olunmuş "Oxu bayramı" keçirilib.

Quba rayon MKS-nin təşkilatçılığı ilə keçirilən tədbirdə qonaqlar kitab və "Bacarıqlı əllər" dərnək üzvlərinin rəsm sərgilərinə baxıblar.

Sonra S.Vurğunun "Vaqif" pyesindən bir hissə, uşaqların təqdimatında rəqslər və "Cırtdan" nağılından səhnəcik nümayiş etdirilib. Fəal oxucuların ifasında şeirlər səslənib.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev bildirib ki, Şuşa yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazıb.

Milli Məclisin deputatı Vahid Əhmədov "Şuşa İli" çərçivəsində bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən, Şuşada, Qarabağda aparılan quruculuq işlərindən danışıb.

Xaçmaz RMİ-nin rəisi Vüsal Hüseynov regionda mədəniyyət müəssisələri tərəfindən "Şuşa İli" ilə əlaqədar silsilə tədbirlərin ilboyu davam edəcəyini bildirib.

YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova, şair Ramiz Qusarçaylı, rayon MKS-nin direktoru Saməddin Nəsirov da çıxış ediblər.

Sonra rayon Mədəniyyət Mərkəzi, Quba rayon uşaq incəsənət və musiqi məktəbləri kollektivlərinin ifasında konsert proqramı təqdim edilib.

"Oxu bayramı"nda fəal iştirak edən oxucular və kollektivlər fəxri fərmanlarla təltif olunublar.

# Azad edilmiş ərazilərdə turizmin inkişafı ilə bağlı konsepsiyalar

İşğaldan azad edilmiş ərazilər üzrə Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi məsələlər üzrə işçi qrupunun iclasında "Daşaltı kəndinin turizm inkişafı konsepsiyası"nın təqdimatı olub.

Dövlət Turizm Agentliyinin əməkdaşı Şuşa rayonunun Daşaltı kəndində turizm sektorunun inkişafı ilə bağlı proqnozlar və investisiya mühitinin əlverişliliyinin artırılması, tələb olunan maliyyə mexanizmləri barədə ətraflı məlumat verib.

Qeyd edilib ki, Dövlət Turizm Agentliyi tərəfindən may ayında Kəlbəcər rayonunun İstisu qəsəbəsinin turizm əsaslı uzunmüddətli və davamlı inkişafı istiqamətində ərazilərə baxış keçirilib, istiqamətlər müəyyən edilib. Rayon ərazisində turizm resurslarından səmərəli istifadə, strateji hədəflər, turizm növləri, turizm və rekreasiya zonalarının inkişafı istiqamətlərini özündə əks etdirəcək "Kəlbəcərin turizm inkişafı konsepsiyası" hazırlanır.

əvvəli səh. 1-də

# Tbilisi Dövlət İncəsənət Akademiyasında Nizamiyə həsr edilən sərgi açılıb

## Giorgi Ququşvili: "Nizami bütün dünyada olduğu kimi, Gürcüstanda da dahi şəxsiyyət kimi tanınır"

Akademiyanın rektoru Giorgi Ququşvili mərasimdə çıxış edərək ölkələrimiz arasındakı qədim dostluq əlaqələrindən danışıb. Bildirib ki, N.Gəncəvi bütün dünyada olduğu kimi, Gürcüstanda da dahi şəxsiyyət kimi tanınır. Onun yaradıcılığından bəhs edən sərginin akademiyada açılması bu hörmətin bariz göstəricisidir. Bu il akademiyanın da 100 yaşının tamam olduğunu deyən rektor vurğulayıb ki, bu iki əlamətdar tədbirin üst-üstə düşməsi ikiqat sevincə səbəb olub.

Tədbirdə çıxış edən səfir Faiq Quliyev, ilk növbədə, akademiyanın kollektivini 100 illik yubiley münasibətilə təbrik edib.

Prezident İlham Əliyevin sərəncamı ilə ötən ilin "Nizami Gəncəvi İli" elan olunduğunu xatırladan səfir deyib ki, il başa çatsa da, dahi şairin zəngin yaradıcılığı müxtəlif ölkələrdə təbliğ olunur. Bildirilib ki, N.Gəncəviyə Gürcüstanda böyük ehtiram bəslənilir, onun bir sıra əsərləri gürcü dilinə tərcümə edilib. Diplomat TDİA-nın Azərbaycanın dahi mütəfəkkirinin 880 illik yubileyinə həsr olunan tədbirə ev sahibliyi etməsini əlamətdar hadisə adlandırıb.

M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin məsul işçisi Leyla Əliyeva diqqətə çatdırıb ki, ötən ilin iyul ayında Tbilisidə Nizami Gəncəviyə həsr olunan ilk tədbir keçirilib. Həmin tədbirdə Azərbaycanın mədəniyyət naziri Anar Kərimov da iştirak edib. Son illərdə Azərbaycan-Gürcüstan mədəni əlaqələri intensivləşib və Gürcüstanda Azərbaycan mədəniyyətinin dostlarının sayı artır.

Nazir müavini Sevda Məmmədəliyeva çıxışında deyib ki, Azərbaycan və





Gürcüstan arasında münasibətlərin qədim tarixi var. Xalqlarımız tarixən mehriban qonşuluq və qardaşlıq şəraitində yaşayıblar. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu əlaqələrə xüsusi diqqət yetirib. Bu gün də Prezident İlham Əliyev və Gürcüstan rəhbərliyi qarşılıqlı əlaqələrə xüsusi diqqət yetirir.

Bu tədbirin Azərbaycanla Gürcüstan arasında



diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünə təsadüf etdiyini də vurğulayan nazir müavini hər iki əlamətdar hadisə münasibətilə təbriklərini çatdırıb.

Mütəfəkkir şairin yaradıcılığına nəzər salan S.Məmmədəliyeva bildirib ki, Nizami Gəncəvi dünya ədəbiyyatında dərin iz buraxmış dahi şəxsiyyətdir və o, dünya mədəniyyəti xəzinəsinə misilsiz incilər bəxş edib. Onun poeziya ənənələrini bir çox ölkələrin şairləri uğurla davam etdirib, böyük gürcü ədib Şota Rustaveli də Nizaminin müasiri olub.

Azərbaycan Dövlət Filarmoniyasının "Gənclərə dəstək" layihəsinin "Şuşa İli" çərçivəsində Tbilisidə səfərdə olan musiqiçilər qrupu tədbirdə maraqlı konsert proqramı təqdim ediblər.

"Muğam" televiziya müsabiqəsinin qalibi Zümrüd Məmmədovanın ifasında Üzeyir Hacıbəylinin şairin sözlərinə yazdığı "Sevgili canan" romansı, "Çırpınırdın, Qara dəniz" mahnısı, "Qarabağ şikəstəsi" və digər musiqi nömrələri səslənib. Onu pianoda Azərbaycanın Əməkdar artisti Nərgiz Əliyeva, tarda Səfər Səmədov, kamançada Elmar Ələkbərli müşayiət ediblər.

Sonda tanınmış gürcü müğənnisi və aktyoru Vaxtanq Kikabidze, Gürcüstan Milli Muzeyinin baş direktoru David Lordkipanidze, sabiq mədəniyyət naziri Valeri Asetiani və daha bir neçə mədəniyyət və incəsənət xadiminə "Nizami Gəncəvi-880" xatirə medalı təqdim olunub.

Onlar göstərilən diqqətə görə Azərbaycan dövlətinə, Mədəniyyət Nazirliyinə və ölkəmizin səfirliyinə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva 3-5 iyun tarixində Gürcüstana səfəri çərçivəsində Tbilisi İncəsənət Sərgisi (Tbilisi Art Fair), Tbilisi İncəsənət Sarayı – Gürcüstan Mədəniyyət Tarixi Muzeyi və Gürcüstan Milli Muzeyinin rəhbərliyi ilə görüşlər keçirib. Mədəni əməkdaşlığın genişləndirilməsinə dair razılıq əldə olunub.

# Mollanı görən olmadı?



"Elə hallar da olur ki, zəif müəlliflərin lazımınca işlənməmiş pyeslərinə rejissorun, yaxud aktyorun şəxsən özünün parçalarını daxil etməsi lazım gəlir. Bu sərbəstliyi yalnız zərurətdən doğarkən bağışlamaq olar. Lakin heç bir əlavəyə ehtiyac olmadan dahiyanə, monolit, klassik əsərlər üzərində də bu cür iş aparan qondarma həvəskarlar olur. Əgər həmin əsərin təbiəti ilə ona daxil edilən parçaların üzvi bir yaxınlığı olsa, yenə yaxşıdır. Çox vaxt heç bu da olmur. Onda gözəl pyesin canlı orqanizmində artıq ət kimi bir şey əmələ gəlir, bu isə parçanı, yaxud pyesi ölgünləşdirir".

Teatr sənətində ustad Stanislavskiyə məxsus bu sözlərlə yazıya başlamağım səbəbsiz deyil. Sözümün canı var və bu barədə, necə deyərlər, az sonra.

Əvvəla, onu deyim ki, ölkədə müstəqil teatrların təşəkkül və inkişafı, onların, çətinliklə də olsa, məkan tapması və özünə repertuar formalaşdırması alqışlanmalı haldır. Ən əsası da teatr prosesinin inkişafı üçün çox vacibdir. Onu da qeyd edək ki, istər Mədəniyyət Nazirliyi, istərsə də bu sahə ilə bağlı başqa qurumlar müstəqil teatrlara imkan daxilində dəstək olurlar. Bu, öz yerində. Amma unutmaq olmaz ki, müstəqillik anlayışı, ümumən azad sənətkarlıq, sərbəst düşüncə və onun tətbiqi ifrata varıb, oradan gözə kül üfürmək deyil və azadlıq anlayışları ilə zarafat eləmək olmaz. Çünki sənin azadlığın bir başqasının azadlığının məhdudlaşmasına qədərdir və yenə də sənin yaradıcı hüdudsuzluğun başqalarının (fərdlər və cəmiyyət olaraq) nəfəsliyini tıxayırsa, gəl, burada dayanaq!...



Bu günlərdə fəaliyyətini yaxından izlədiyim və nisbətən bəyəndiyim müstəqil "Səhnə" teatrının növbəti premyerasına baxdım.

Tamaşanın adı "Molla Nəsrəddin – 2022" idi. Komediya janrlı tamaşanın müəllifi Xaqani Əliyev, quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Oruc Qurbanov, quruluşçu rəssamı Rəşad Yaqubov, xoreoqrafı İmran Qurban Əli, musiqi tərtibatçısı Nicat Cəbrayılov idi.

Birhissəli səhnə işində rolları Elçin Hacı (Molla Nəsrəddin), Ramil Məmmədov (Əzrayıl), Əhliman Ərşadlı (Axund), Vaqif Kərimov (Məmmədəli), Ruhiyyə Yəhyayeva (Arvad), Rəbbilə Ələkbərzadə (Gülnaz), Mahir Mirişli (Qoçu), Absalam Həşimli (Bloger), Ağaəli Kərimzadə (Lotu) və Nazlı Quliyeva (Mələk) ifa edirlər.

Qısaca qeyd edim ki, müəlliflərin keçmişlə bu günümüzü sintezdə təqdim etməyə çalışdıqları tamaşa Molla Nəsrəddinin evlənmə hekayəsindən bəhs edir. Qəfil peyda olan Əzrayıl Molla Nəsrəddini yuxudan oyadıb özü ilə o biri dünyaya aparmağa gəldiyini söyləyir. Hələ çox cavan olduğunu biləndən sonra ona evlənmək üçün üç gün möhlət verir. Molla Nəsrəddin Əzrayılla dostlaşır və sevgisinə qovuşmaq üçün ona əngəllər yaradan kənd adamları ilə mübarizəyə başlayırlar. Toy gününün səhəri oyanıb evində sevdiyi qızı yox, kənddə hamının tanıdığı eybəcər arvadı görən Molla Nəsrəddin aldadıldığını başa düşür. Maraqlı hadisələr də bundan sonra başlayır. Şən musiqilər və kütləvi rəqslərlə bol olan tamaşada gülməli hadisələr bir-birini əvəz edir.

Əsas məsələ "Düşündürərək güldürən" söz ustadı Molla Nəsrəddinin "ölüm mələyi" ilə tanışlığıyla başlayır. Hə, özü də buna qədər kənd camaatının, daha doğrusu, Molla Nəsrəddinin kələkbazlığından şikayət edib, onun qurbanına çevrilən avaragor tiplərin xətasından qurtulmaq istəyən Molla özünü ölmüşlüyə vuraraq sovuşmaq istəyir. Bu dəm, təbii ki, zarafatı gerçək olur və Əzrayıl zühur edərək onun canını almağa gəldiyini deyir. Mərəkə də bundan sonra başlayır. Elə fağır Mollanın 2022-ci ilə inteqrasiyası da. Əslində, bu, yaxşıdır və biz küll halında istər səhnə, istər musiqi, istərsə də tərtibat ilə prosesin tam çağdaşlığını görürük. Düzdür, ifrat, bəzən yeknəsəq görünən detalçılıq da az deyildi. Xüsusən Əzrayılın elektron sistemə girib, potensial ölülər siyahısı üzərində əllaməçiliyi.

Həmçinin Molla ilə dialoqlarında ziyadə "Tik-tok" və digər sosial şəbəkə şəbədələri səviyyəsində danışmağadək, nə desəniz var idi. Tamaşaçı güldümü? Qəşş edənədək, bəs sonra?

Elə bütün məsələ də bu sualdan sonra verilən cavabdan asılıdır ki, rejissor onu bizdən əsirgədi.

Ümumən tamaşanın həlli maraqlı idi. İstənilən dövr üçün sevginin, dolayısı ilə saf hisslərin qələbəsi ön plana çıxdı. Nəticə etibarilə biz uzaq keçmişdəki Molla Nəsrəddin lətifələrinin personajlarının özü qarışıq bu gün də aramızda var-gəl etdiklərinin, nə qədər ağıllanıb, dövrün texniki bilgiləri ilə cilalansalar da, asanlıqla aldana biləcəklərinin, əslində, hamımızın gözümüzə üfürülən külə xumarlandığımızın şahidi olduq.

Düzdür, biz Molla Nəsrəddinin xalq arasında məşhur lətifələrindən, onun ibrətamiz rəvayətlərindən, ələlxüsus da sadiq dostu uzunqulağından nümunələr gördük. Amma yalnız bir neçə məqamda rejissorun Molla Nəsrəddinin dili ilə dediyi dərdlərə gülüb, düşündük. Qalan hər şey lağlağıya hesablanmışdı və yəqin elə məhz bu da lazım idi.

Yuxarıdakı azadlıq sözünə və tamaşada Molla Nəsrəddini axtarışıma gəlincə, yaradıcı heyətdən elə-belə, maraqlıdır deyə soruşuram: Molla Nəsrəddin kim idi və niyə bu qədər dövrü-zamana qalib gələrək yaşadı? Bax, əsas sual da budur və əgər onun ətrafında teatr əməliyyatı aparırıqsa, bazamız güclü, əsaslı, ana xəttimiz doğru təyin olunmalıdır...

Gələk yazıq Mollanın heç ağlına belə gəlməyəcək blogerlik məsələsinə. Daha doğrusu, onun təyinatına. Bilirəm, bir sıra sosial şəbəkələr vasitəsilə dükan-bazar, ənlik-kirşan reklam edənləri gözümüzə bloger kimi dürtüblər. Səhnə nümunəsində belə tiplərin gülüş obyekti kimi təqdimatı da təqdir edilməlidir. Amma biz səhnədə bunun tam əksini gördük. Yəni guya tənqid hədəfi kimi təqdim edilən yırtıq şalvarlı cinsiyyəti bəlli olmayan bloger hamıya yol "göstərib", ağıl öyrətdi, müsbət qəhrəman da oldu. Üstəlik, bu tamaşa vasitəsilə cəmiyyətə şüuraltı yeridilən ideyasını səhnənin düz mərkəzində püskürdü.

Bu siyahını genişləndirib, başqa neqativ, daha doğrusu, arzuolunmaz məqamlar üzərində də dayanmaq olardı. Amma təzə "Molla Nəsrəddin"çilərin cəsarətlərinə və böyük emosional həzz ilə təqdimatlarına görə dözmək olar.

Tamaşanın aktyor oyunu təbii, maraqlı, baxımlı və dinamik idi. Lap tər dabanlarından çıxanacan, enerjiləri tükənənədək oynadılar. Rəqslər və musiqidən yerində istifadə, hətta öz-özünü məsxərəyə qoymaq cəhdləri yaxşı idi.

Tamaşanın Molla Nəsrəddini və xüsusilə də Əzrayılı məzmunlu oyunları ilə seçildilər. Axundun klassik oyun üslubuna sadiqliyi, Qoçunun xarakterik elementlərdən hali olması, Gülnazın səhnəyə rəngarənglik qatması, Arvadın müxtəlif vəziyyətə uyğun sürətli dəyişkənliyi aktyorların obrazlarına bələdliyinin göstəricisi idi.

Amma unutmadan onu da deyim ki, səhnə bütün zamanlarda və formasiyalarda mütləq mütərəqqi düşüncə meydanı, estetikanın, sənət əxlaqı və bəşəri dəyərlərin əsas meyarlarının nümayiş məkanı olub. O, nə vaxtsa bu funksiyasından imtina edərsə, məhvərindən çıxıb, darmadağın olar. Odur ki, səhnəyə bütün əndazəsiz çılğınlıqları bir kənara qoyaraq çıxmalısan. Əks halda...

**Həmidə Nizamiqızı**

# "Utancaq qız" Belarusa gedəcək

23-27 iyun tarixində Belarus Respublikasının Mogilyov vilayətinin Bobruysk şəhərində "Dostluq çələngi" Beynəlxalq Teatr Festivalı keçiriləcək.




Festivalda ölkəmizi Azərbaycan Dövlət Akademik Musiqili Teatrı böyük rus yazıçısı Fyodr Dostoyevskinin "Utancaq qız" fantastik povesti əsasında hazırlanan eyniadlı monotamaşa ilə təmsil edəcək.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşacaq səfərdə teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, monotamaşada əsərin yeganə qəhrəmanını oynayan Əməkdar artist Şövqi Hüseynov və teatrın səs rejissoru Məhəmməd Məmmədov iştirak edəcəklər.

Qeyd edək ki, "Utancaq qız" monotamaşasına görkəmli rejissor, Xalq artisti Cənnət Səlimova quruluş verib. Tamaşa iyunun 25-də festival iştirakçılarına təqdim olunacaq.

Bu, "Utancaq qız"ın xaricə ikinci səfəridir. Tamaşa bundan öncə cari ilin fevral ayında Tehranda keçirilən "Fəcr" Beynəlxalq Teatr Festivalında uğurla nümayiş olunub.

# Kuklaçılar beynəlxalq festivaldan diplomla qayıdıblar

Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı iyunun 1-dən 5-dək Gürcüstanın Tbilisi şəhərində keçirilən I Beynəlxalq Uşaq və Gənclər Teatrları Festivalında iştirak edib.



Gürcüstan İncəsənət və Tədqiqatlar İnstitutu və Gənclər Milli Mərkəzinin birgə təşkilatçılığı, Tbilisi Meriyası və UNESCO-nun Təhsil Şəbəkəsinin dəstəyi ilə reallaşan festivalda keçmiş Sovet ittifaqı ölkələri, eləcə də İran və İsveçrə təmsil olunub.

Azərbaycan kuklaçıları festivalda teatrın repertuarındakı milli koloritli səhnə işlərindən olan M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası əsasında hazırlanan tamaşanı təqdim ediblər.

2012-ci ildən teatrın repertuarına daxil edilən tamaşanın quruluşçu rejissoru Aleksandr Maksimıçev, quruluşçu rəssamı Tatyana Melnikova, bəstəkarı İqor Roqalyo, quruluşçu baletmeysteri Zakir Ağayevdir. Səhnə əsərində rolları Elmira Hüseynova, Səriyyə Mansurova, Elnur Abbasquliyev, İqbal Əliyev və Cavid Telman ifa ediblər.

Teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadənin rəhbərlik etdiyi heyət festival proqramından kənar da çıxışlar edib. Kuklaçılar Gürcüstanın azərbaycanlıların kompakt yaşadığı Marneuli rayonunda teatrın repertuarındakı tamaşalardan parçalar nümayiş etdiriblər.

Festivalda, tamaşa nümayişləri ilə bərabər, müasir uşaq və kukla teatrlarının problemləri, uşaqların təhsil və tərbiyəsində teatrın rolu və s. mövzularda panel müzakirələri də təşkil edilib.

"Avrasiya mədəniyyət qovşağı – İpək Yolları" təşəbbüslərinin inkişafı çərçivəsində keçirilən tədbirdə Beynəlxalq Teatr İnstitutu və Uşaq və Gənclər Teatrları Beynəlxalq Assosiasiyası (ASSİTEJ) da təmsil olunub.

Festivalda hər hansı nominasiya üzrə mükafatlar nəzərdə tutulmasa da, azərbaycanlı kuklaçılar beynəlxalq tədbirdə fəal iştiraka, eləcə də milli kukla teatrı ənənələrinin yaşadılması və inkişafında xidmətlərə görə Beynəlxalq Teatr İnstitutu və festivalın təşkilat komitəsinin diplomları ilə təltif olunublar.

# Müharibənin son anına qədər...

Onun döyüş yolu Füzuli ilə başlayıb Şuşa zəfəri ilə taclanmışdı. Bir neçə saat da xain düşmənin mərmisindən yayına bilsəydi...



Vətən müharibəsində torpaqlarımızın yağı tapdağından qurtulması uğrunda şəhadətə yüksələn minlərlə igidimizdən biridir İnqilab Qədirbəyli.

İnqilab Tofiq oğlu Qədirbəyli 1995-ci il martın 10-da Salyan şəhərində anadan olub. İlk təhsilini yaşadığı Salyan rayonunun Aşıq Pənah adına 1 saylı tam orta məktəbində alıb. Təhsil müddətində daim təlim-tərbiyəsi ilə seçilib, müəllim və şagird yoldaşlarının rəğbətini qazanıb. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub. 2016-cı ildə təhsilini müvəffəqiyyətlə bitirərək Füzuli rayonu ərazisindəki N saylı hərbi hissədə xidmətə gedir. Xidmət zamanı nizam-intizamına, verilmiş tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyinə görə təltif olunur.

Vətən müharibəsi başlanan gün cəbhəyə yollanan İnqilab Füzuli, Qubadlı, Hadrut, Daşaltı və bir çox yaşayış məntəqələrinin işğaldan azad olunmasında iştirak edir.

Artıq əsas hədəf qala-şəhərimiz Şuşa idi. Böyük çətinliklərdən, od-alovdan keçən qəhrəman oğullar arzularımızın şəhərinə doğru gedirdilər. Budur, cəsur hərbçilərimiz Şuşanın bir addımlığındadırlar. Şəhərin qurtuluşu üçün qanlı döyüş başlanır. İnqilab da döyüş yoldaşları ilə birgə qəhrəmanlıq göstərir. 28 il yolumuzu intizarla gözləyən Şuşamız azadlığına qovuşur. Noyabrın 8-də Ali Baş Komandan xalqımıza Şuşanın azad olunması ilə bağlı müjdəni verir.

İnqilab və silahdaşları şəhərin ətrafını mənfur düşməndən təmizləməyə davam edirlər. Noyabrın 9-u. Müharibənin son günüdür. Qəhrəman oğullar heç nədən xəbərsiz düşmənin başına od ələyir, ancaq irəli gedirlər. Və xain düşmənin növbəti top mərmilərindən biri İnqilabın yaxınlığında partlayır... Adını Şuşa fatehlərinin sırasına yazdıran qəhrəman döyüşçü şəhidlik şərbətini içir.

Şəhidin anası, Biləsuvar Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Salyan rayon MKS-nin Kitabişləmə şöbəsinin əməkdaşı Təranə Qədirova qeyd edir ki, İnqilab müharibə müddətində ailəsi ilə tez-tez əlaqə saxlayıb: "Həmişə deyirdi ki, narahat olmayın, mən arxa cəbhədəyəm. Sən demə, biz ondan nigaran qalmayaq deyə öndə döyüşdüyünü gizlədirmiş. İnqilab müharibənin ilk günlərindən şəhid olanadək ön sırada döyüşənlərdən olub. Allah İnqilaba və bütün şəhidlərimizə rəhmət eləsin".

Şəhidin döyüş yoldaşı Namir Həsənli İnqilabı özünün qəhrəmanı hesab etdiyini deyir: "Yadımdan çıxmaz, oktyabrın 8-də qızğın döyüşlər gedirdi. Səhərə qədər davam edən yağışın altında qalmışdım, qızdırmadan alışıb-yanırdım. Səhərə yaxın düşmən hücuma keçdi. Biz olduğumuz mövqeni qorumalı idik. O qədər yorğun idim ki, hətta tətiyi belə basa bilmirdim. O anda İnqilab köməyə gəldi. Dedim burax məni get, amma, o, məni tək qoymadı. Təzə paltar və çəkməyə qədər mənə gətirib verdi. Yaralananda məni mühasirədən çıxaranlardan biri də İnqilab idi. O, əsl qəhrəmandır. Ruhu şad olsun".

İnqilab Qədirbəyli 2020-ci il noyabrın 11-də Salyan rayon Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", Qubadlı, Füzuli və Şuşanın azad olunmasına görə medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

**Nurəddin**

# İncəsənət və elmin Şuşada qovuşan yolu

## Rafael Hüseynov: "Zəfər rəmzi Şuşadan hələ çox zəfərlərimizə yollar açılacaq"

Xəbər verdiyimiz kimi, 2-4 iyun tarixində Azərbaycan Respublikasının Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi, ADA Universiteti və Beynəlxalq Balkan Universitetinin birgə təşkilatçılığı ilə ölkəmizdə 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi keçirilib. İlk iki iş günü Bakıda gerçəkləşən konqresə iyunun 4-də Şuşada yekun vurulub. Konqresin son panel iclasında beş məruzə dinlənilib.




Şuşa panelində Azərbaycan tərəfdən millət vəkili, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov "Gözəl sənətlərin, elmlərin və zəfərlərin Şuşada qovuşan və sabahlara uzanan yolu" mövzusunda məruzə ilə çıxış edib. Akademik Qarabağın və Şuşanın tarixinin Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir, Əhməd bəy Cavanşir, Mir Mehdi Xəzani, Mirzə Rəhim Fəna, Həsən İxva Əlizadə və digərlərinin müəllifi olduğu "Qarabağnamə"lərdə təfərrüatı ilə əks etdirildiyini diqqətə çatdıraraq deyib: "Bu gün azərbaycanlıların dilində "Qarabağ Azərbaycandır!" sözləri artıq bir şüar kimi hər gün səslənməkdədir. Qarabağın tacı Şuşa şəhəri rəsmən Azərbaycanın və Türk dünyasının mədəniyyət paytaxtı elan edilib. Ancaq Şuşa həmişə Qarabağın və bütöv Azərbaycanın ürəyi hesab edilib. Başqa sözlə, bu anlarda siz hamınız Qarabağın, Azərbaycanın ürəyindəsiniz. Yalnız indi yox, əsrlərcə bu bir isbata ehtiyacı olmayan həqiqət kimi qəbul edilib ki, Qarabağ və Qarabağda yetişmiş şəxsiyyətlər Azərbaycanı Azərbaycan edən dəyərlər sırasında ən ucada dayanıb, Şuşa da bir şəhər olaraq qurulmağa başladığı vaxtlardan elə hamı tərəfindən mədəniyyətin paytaxtı sayılıb. Həm də bunu yalnız Azərbaycanın içərisində biz özümüz və yaxın qonşularımız belə hesab etməyib, Şuşanın bir mədəniyyət başkəndi olması hüdudlardan kənarlarda da etiraf edilib".

Rafael Hüseynov bildirib ki, indi 270 yaşı tamam olan Şuşanı vaxtilə bir iqamətgah olaraq seçəndən sonra 1752-ci ildən bu şəhərin quruculuğuna başlayan Pənahəli xan Cavanşir buranı yalnız inzibati bir mərkəzə deyil, məhz örnək şəhərə, ilk növbədə, bir mədəniyyət mərkəzinə çevirməyi hədəf seçmişdi. Qarabağdan və Azərbaycanın müxtəlif guşələrindən ən yaxşı ustaları, ən yaxşı musiqiçiləri, ən kamil əsnafı, ən seçmə nəsillərin təmsilçilərini buraya toplamağa başlamış, Şuşa tezliklə Qafqazda, Yaxın və Orta Şərqdə mədəniyyətləri qovuşduran məkana çevrilmişdi.

Akademik alban salnamələrinə əsaslanaraq söyləyib ki, musiqi və incəsənətin bu bölgədə güclü tərəqqisi hələ VII əsrdən, Cavanşir sarayına toplaşan şair və musiqiçilərin qoyduğu ənənələrdən başlayıb. Şuşanın yarandığı gündən Qarabağın inzibati-siyasi mərkəzi rolunu oynadığını, şəhərin 1755-1822-ci illərdə Qarabağ xanlığının paytaxtı olduğu çağlardan burada daim elmi-mədəni həyatın qaynadığını söyləyən Rafael Hüseynov həmin mühitin yetirdiyi görkəmli alim və sənətkarlar barədə konqres iştirakçılarına məlumat verib. Bildirib ki, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 16 rəssam, 5 astronom, 18 memar, 16 həkim və 40-dan çox müəllim-mirzə olub: "Böyük xanəndə Cabbar Qaryağdıoğlunu məşhur rus şairi Sergey Yesenin 1924-cü ildə "Şərq musiqisinin peyğəmbəri" adlandırırdı. Yəni həmişə görüblər ki, bu yerdəki ulduzların böyüklüyünü, parlaqlığını müqayisə etmək üçün gərək əhatəni geniş götürəsən, daha zəngin coğrafiyaya çıxasan. Bu minvalla Şuşanın özünə də, sadəcə, "Gözəl səslər" şəhəri, "Musiqi beşiyi", yaxud lap dəqiqləşdirirmiş kimi "Konservatoriya şəhər" adlandırmağı az sayıblar, 1908-ci ildə Tiflisdə nəşr edilmiş "Kavkazskaya muzıka" adlı kitabda Şuşanı elə birbaşa "Qafqazın konservatoriyası" adlandırıblar".

Şuşanın tarixən Pənahabad, xalq dilində isə adətən Qala adlandırıldığını deyən akademik bildirib ki, Azərbaycanın 2020-ci ilin payızında 44 günlük müharibədə qazandığı möhtəşəm Qələbədən sonra Şuşa Zəfərin ən parlaq rəmzinə çevrildi və VII Beynəlxalq Sosial Elmlər Konqresinin yekun toplantısının burada keçirilməsi, Qarabağa həsr edilməsi də daim bizimlə olacaq zəfərlər yolunun daha bir davamı və təntənəsi deməkdir.

# Milli Kitabxana "Lütfi Zadə. Biblioqrafiya"nı nəşr etdirib

Dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, professor Lütfi Zadənin (1921-2017) anadan olmasının 100 illiyi ötən il ölkəmizdə geniş şəkildə qeyd edildi. Milli Kitabxana, Prezident İlham Əliyevin böyük alimin 100 illik yubileyi haqqında sərəncamını və Mədəniyyət Nazirliyinin tədbirlər planını əsas tutaraq "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Lütfi Zadə. Biblioqrafiya"nı nəşr etdirib.

Kitabxanadan bildirilib ki, nəşr Lütfi Zadəyə həsr edilmiş ilk fundamental biblioqrafiyadır. Biblioqrafiyaya AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanov "Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi – Lütfi Zadə" adlı ön söz yazıb.

Biblioqrafiyada alimin əsərləri, həyat və yaradıcılığına aid zəngin materiallar toplanıb, həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri, rəsmi sənədlər əksini tapıb. Biblioqrafiyanın "Lütfi Zadə dünya milli kitabxanalarında" və "Lütfi Zadə dünya universitet kitabxanalarında" bölmələrində toplanan ədəbiyyat alimin elmi irsinin bütün dünyada çox geniş yayılmasının əyani sübutudur. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə biblioqrafiyanın sonunda Lütfi Zadənin əsərlərinin və haqqında yazan müəlliflərin Azərbaycan və digər dillərdə əlifba göstəriciləri verilib.

Biblioqrafiyada Azərbaycan, rus, ingilis və başqa dillər üzrə materiallar əks olunub.

# Ordubadiyə həsr olunmuş elektron məlumat bazası hazırlanıb

XX əsr Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, yazıçı, dramaturq, publisist Məmməd Səid Ordubadinin (1872-1950) 150 illik yubileyi münasibətilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşları tərəfindən elektron məlumat bazası hazırlanıb.

Kitabxanadan bildirilib ki, "Məmməd Səid Ordubadi–150" adlı elektron bazada ədibin həyat və fəaliyyəti, Azərbaycan tarixi roman janrında tutduğu müstəsna mövqeyi, müəllifi olduğu əsərlər barədə məlumatlar yerləşdirilib. Həmçinin onun haqqında yazılan kitablar, dissertasiyalar və dövri mətbuat nümunələrinin siyahıları da təqdim edilib. Bazada M.S.Ordubadinin "Molla Nəsrəddin" jurnalı ilə ünsiyyəti və sıx bağlılığı haqqında geniş məlumat verilib. Ordubadinin Xatirə Muzeyi haqqında da materiallar toplanıb.

"Şuşalı bəstəkarlar"

# Hacıbəyovların açdığı sənət yolu



Soldan sağa: Ceyhun Hacıbəyov, Üzeyir Hacıbəyli, Ağalar bəy Əliverdibəyov, Zülfüqar Hacıbəyov

Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa. 270 yaşlı şəhərimiz bu adı, bu şöhrəti təsadüfən qazanmayıb. Etiraf edək ki, Şuşanın Azərbaycan ədəbiyyat və mədəniyyətinə bəxş etdiyi şəxsiyyətlər olmasaydı, bu sahələrdə nəzərəçarpacaq boşluqlar olardı. Tarix boyu bu şəhər maddi nemətlərdən daha çox milli-mənəvi "nemətlər", böyük sənətkarlar yetirib.

Hələ ötən əsrin əvvəllərində musiqişünas Viktor Vinoqradov "Üzeyir Hacıbəyov və Azərbaycan musiqisi" (1938, rus dilində) kitabında Şuşanın musiqi həyatından bəhs edərək yazmışdı: "Yaşıl otlaqların bürüdüyü sıldırım dağ döşündə mənzərəli Şuşa şəhəri. Onun gözəl təbiət mənzərələri hər il səyyahları özünə cəlb edir, yaşıllıqlara qərq olmuş dağların mülayim cizgiləri yolçuları valeh edir. Lakin Şuşadan alınan estetik təəssürat bununla qurtarmır. Burada Azərbaycanın başqa rayonlarına nisbətən musiqi daha çoxdur. Burada həmişə xalq mahnılarını, xanəndələri, çalğıçıları dinləmək və rəqslərə baxmaq olar. Şuşa uzun zamanlardan bəri musiqi mərkəzi kimi tanınmış və xalq musiqi istedadlarının tükənməz məktəbi kimi bütün Zaqafqaziyada şöhrət qazanmışdır".

Musiqişünas Firudin Şuşinski 1968-ci ildə nəşr etdirdiyi "Şuşa" adlı kitabında qeyd edir ki, Şuşa XX əsrin əvvəllərində Qafqazın həm konservatoriyası, həm də Azərbaycanın musiqi beşiyi idi...

"Şuşa İli" münasibətilə qala-şəhərimizin Azərbaycanın musiqi mədəniyyətinə bəxş etdiyi bəstəkarlardan söz açacağıq. Şuşalı bəstəkarlardan danışarkən, sözsüz ki, ilk növbədə Azərbaycan klassik musiqisinin banisi, musiqi mədəniyyətimizdə, sözün gerçək mənasında, inqilab yaratmış Üzeyir Hacıbəyli yada düşür. Dahi bəstəkar musiqi salnaməmizin şöhrət simvolu, bu sahədə indi də mayak rolu oynayan sənət məktəbinin yaradıcısıdır. Onun zəngin milli və ümumbəşəri duyğuları əks etdirən əsərləri dünyanın müxtəlif ölkələrində ifa olunur, dinlənilir, izlənilir və sevilir. Üzeyir bəy təkcə Azərbaycan professional musiqisinin banisi kimi deyil, həm də böyük alim, maarifçi, dramaturq, publisist, pedaqoq, ictimai xadim kimi Azərbaycan tarixində görkəmli yer tutur.

"Şuşalı bəstəkarlar" rubrikası ilə başladığımız silsilədə dahi Üzeyir bəyin açdığı sənət yolunda irəliləyən, musiqi mədəniyyətimizi diqqətəlayiq əsərlərlə zənginləşdirən bəstəkarları xatırlayacağıq.

Hacıbəyov soyadı daşıyan və milli musiqi mədəniyyətimizin inkişafına mühüm töhfələr verən neçə-neçə sənətkarımız var. Üzeyir Hacıbəylinin milli mədəniyyətimiz, ədəbiyyat və ictimai fikir tariximizdə misilsiz xidmətləri hər kəsə bəlli. Silsilədə ilk olaraq bu ailənin, bu ocağın digər nümayəndələrini qısa şəkildə yada salacağıq.

**Zülfüqar Hacıbəyov** (1884-1950). Üzeyir bəyin böyük qardaşı, bəstəkar, Əməkdar incəsənət xadimi. Z.Hacıbəyov Azərbaycanda musiqili komediya teatrının yaradıcılarından biri sayılır. Dahi dirijor, SSRİ Xalq artisti Niyazinin atasıdır. O, ilk Azərbaycan muğam operalarından olan "Aşıq Qərib", "Evliykən subay", "Əlli yaşında cavan" musiqili komediyalarının müəllifidir. Bəstəkarın "Əlli yaşında cavan" (1909) operettası Azərbaycanda musiqili komediya janrının ilk nümunəsi hesab edilir. Müəllifin "Kəndçi qızı", "Çoban qızı", "Əsgər nəğməsi", "Azərbaycan" kantatası və digər əsərləri diqqətəlayiq nümunələrindəndir.

**Niyazi** (Niyazi Hacıbəyov-Tağızadə; 1912-1984). Görkəmli dirijor, bəstəkar, SSRİ Xalq artisti. Azərbaycanda dirijorluq məktəbinin formalaşması və inkişafı onun adı ilə bağlıdır. Q.Ropov, P.Ryazanov, L.Rudolfun bəstəkarlıq məşğələlərində iştirak edən Niyazi dirijorluq fəaliyyətinə 1934-1935-ci illərdə başlayır.

Niyaziyə bəstəkar kimi şöhrət gətirənsə "Xosrov və Şirin" operası, "Çitra" baleti, "Zaqatala süitası", "Rast" simfonik muğamı və digər əsərləridir. Sənətkar "Çitra" baletinə görə Hindistanın Cəvahirləl Nehru adına beynəlxalq mükafata layiq görülüb. O, Azərbaycan Dövlət Filarmoniyasının direktoru işləyib.

Niyazi klassik musiqimizin banisi Üzeyir Hacıbəylinin, sözün əsl mənasında, davamçısı olmaqla öz gərgin əməyi və istedadı nəticəsində mənsub olduğu nəslin görkəmli nümayəndəsinə çevrilib. Fitri istedad, yüksək musiqi mədəniyyəti, möhkəm iradə onun yaradıcılığı üçün səciyyəvidir. Azərbaycan bəstəkarlarının və peşəkar dirijorluq məktəbinin formalaşması və inkişafında, yeni ifaçılar nəslinin yetişməsində Niyazinin böyük xidmətləri olub.

**Soltan Hacıbəyov** (1919-1974). Görkəmli bəstəkar, dirijor, pedaqoq, SSRİ Xalq artisti. S.Hacıbəyov Üzeyir bəyin əmisi nəvəsidir. O, Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru, Azərbaycan Bəstəkarlar İttifaqının katibi və Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) rektoru vəzifələrində çalışıb. S.Hacıbəyovun "Birinci simfoniya"sı onun yaradıcılığında mühüm yer tutur.



Soltan Hacıbəyov, Niyazi, Qara Qarayev

1945-ci ildə Türkmənistan Opera və Balet Teatrı S.Hacıbəyova "Kəminə və Qazı" operasını yazmağı sifariş edir. Həmin əsərin simfonik parçası "Karvan" (simfonik lövhə) xüsusilə böyük maraq doğurur. Orta Asiya mənzərəsini musiqi dili ilə canlandıran bəstəkar "Karvan"da təsviri lövhələrə meyil edir, ayrı-ayrı parlaq cizgilərlə və rəngarəng musiqi vasitələri ilə qızmar cənub təbiətini, hüdudsuz səhranın vüsətini, karvanın həzin, ahəstə hərəkətini böyük ustalıqla ifadə edir.

Bəstəkarın "Oynaq topum", "Laylay", "Bənövşə", "Bahar gəldi", "Yolka" və digər uşaq mahnıları və s. bu gün də sevilərək dinlənilir. Müəllifin "İskəndər və çoban" (libretto M.Seyidzadə) uşaq operası da maraqlı əsərlərdəndir.

**İsmayıl Soltan oğlu Hacıbəyov** (1949-2006). Bəstəkar, pedaqoq, Əməkdar incəsənət xadimi. Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq üzrə dahi bəstəkar Qara Qarayevin sinfini bitirib. 1972-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) Bəstəkarlıq kafedrasında dərs deyib. Piano üçün "Albomdan səhifələr", "Üç idilliya", fleyta və simli orkestr üçün "Konsertştük", oktet üçün "Divertisment", "Firuzə" operası, fleyta, klarnet və piano üçün "İstəklər" triosu və s. əsərləri var.

***

Üzeyir bəyin açdığı sənət yolunda sonralar Azərbaycanın musiqi mədəniyyətini dünya miqyasında tanıdan neçə-neçə bəstəkar yetişdi. Bu gün Şuşa ünvanlı bəstəkarlarımızın sorağı yaxın-uzaq ölkələrdən gəlir. Azad Şuşamız bundan sonra da musiqimizə yeni adlar bəxş edəcək...

**Lalə Azəri**

# Şuşanın tarixi abidələrini əks etdirən rəsmlər

## Tarix Muzeyinin kolleksiyasında qorunur

Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında vaxtilə AMEA Memarlıq və İncəsənət İnstitutunun professoru olmuş Qəzənfər Əlizadənin Azərbaycanın bir çox dilbər guşələrini əks etdirən rəsm əsərləri mühafizə olunur.

Muzeydən bildirilib ki, bu nümunələr arasında görkəmli memar-rəssamın Şuşa şəhərinə həsr olunmuş "Gövhər ağa məscidinin qoşa minarəsi" və "İbrahimxəlil xanın qalası" adlı əsərləri də var. Muzeyin Təsviri materiallar fondunda qorunan həmin əsərlər müəllif tərəfindən təxminən 1950-ci illərdə çəkilib.

Geniş yaradıcılığa malik memar-rəssam Q.Əlizadə şəhər memarlığına da töhfələr verib, onun layihələri əsasında 1958-ci ildə Azərbaycan Dövlət Dram Teatrının binası, 1960-cı ildə isə "Azərbaycanfilm" Kinostudiyasının əsas binası inşa edilib.

Təqdim olunmuş təsviri sənət nümunələri Şuşa memarlıq abidələri və incəsənətinin tədqiqi baxımından əhəmiyyət kəsb edir.

# 4.4 Qısa Tamaşalar Festivalı – ikinci mövsüm

Mədəniyyət Nazirliyi və Teatro.az sənət portalı milli teatr prosesini canlandırmaq, teatr sənətçilərini yeni yaradıcı təşəbbüslərə təşviq etmək məqsədilə 2-ci "4.4 Qısa Tamaşalar Festivalı"na (QTF) tamaşa qəbulu elan edir.




Festival "Şuşa İli"nə həsr olunub. 2021-ci ilin noyabr ayında baş tutan ilk festivaldan fərqli olaraq, builki "4.4 Qısa Tamaşalar Festivalı"nda səhnə işlərinin onlayn deyil, canlı təqdimatı nəzərdə tutulur. Festival çərçivəsində tamaşa nümayişi ilə yanaşı, treninq, seminar və panel müzakirələr təşkil olunacaq ki, bu da teatr prosesini canlandırmağa, teatr sənətinin təbliğinə və inkişafına xidmət edəcək.

Festivalda janr məhdudiyyəti yoxdur, iştirakçılar mövzu seçimində sərbəstdir.

Qaliblər peşəkar teatr xadimlərindən ibarət münsiflər heyətinin qiymətləndirməsi əsasında müəyyən ediləcək. 1-ci, 2-ci və 3-cü yerlər üçün müvafiq olaraq 5000 manat, 3000 manat və 1500 manat mükafat fondu nəzərdə tutulub. Hər yer üzrə bir qalib seçiləcək.

Festivala dövlət və bələdiyyə teatrları ilə yanaşı, özəl teatr kollektivləri və müstəqil sənətçilər də qatıla bilər. Bir kollektiv, yaxud sənətçi müsabiqəyə yalnız bir tamaşa təqdim edə bilər.

Festivala yalnız yeni tamaşalar qəbul edilir. Tamaşaların xronometrajı 45 dəqiqədən artıq olmamalıdır.

İştirakçılar tamaşaların treylerini (MP4 formatında, 720p və daha yüksək görüntü keyfiyyətində 30-60 saniyə) və müraciət formasını təşkilat komitəsinə təqdim etməlidir.

Müsabiqə üçün materiallar 15 oktyabr 2022-ci il tarixindən gec olmayaraq 4.4festival@teatro.az elektron poçt ünvanına göndərilməlidir. Həmçinin tamaşanın MP4 formatında, 720p və daha yüksək görüntü keyfiyyətində ümumi plan çəkilişi və 3-5 ədəd fotoşəkil təqdim olunmalıdır.

Əlaqə nömrəsi: (+994 50) 660 20 25

# Səhnədə ilk uğur




Uşaqların teatra, səhnə sənətlərinə sevgi ruhunda böyüməsi, teatrın qalıcı estetik zövq məkanı olmasını qavramaları üçün erkən dövrdən təbliğat, şübhəsiz ki, müsbət rol oynayır. Bu mənada uşaqlar üçün repertuar formalaşdıran teatrların üzərinə böyük məsuliyyət düşür.

Məsələnin digər tərəfi kimi uşaqların özlərinin prosesə cəlb olunması, istedad və bacarıqlarının səhnədə, qismən də olsa auditoriya qarşısında ifadə etməsi də vacib amildir. Bu sahədə fəaliyyət göstərən uşaq teatr-studiyaları var. Amma hələ sovetlər dönəmindən uşaq bağçaları, ümumtəhsil məktəbləri və ümumən uşaq və yeniyetmələrlə iş aparan qurumlarda bu məsələ sistemli həll olunur, dram dərnəkləri, sonrakı prosesdə xalq teatrları həvəskarların teatra gəlişinə əhəmiyyətli zəmin yaradırdı.

Hazırda bu sahədə proses pərakəndə davam etsə də, diqqəti cəlb edən təşəbbüslər də gözə dəyir.

Ötən həftə (3 iyun) Azərbaycan Teatr Xadimləri İttifaqı (ATXİ) kiçikyaşlı uşaqların rəngli dünyasına qucaq açmaqla teatrın, səhnənin ecazkar gücünü bir də şirin-şəkər fidanların simasında isbat etdi. Mərasim "Bağçam" uşaq bağçaları şəbəkəsinin təşkilatçılığı ilə keçirilən "Uşaq teatr festivalı"nın yekununa həsr olunmuşdu.

Məlumat üçün deyək ki, uşaqların bədii təfəkkürünün, ünsiyyət və özünüifadə bacarığının, eləcə də estetik yaradıcı təxəyyülünün inkişaf etdirilməsi məqsədilə reallaşan festivala ümumilikdə 6 tamaşa təqdim olunub. Altı ay ərzində ərsəyə gələn bu tamaşaların nümayişçiləri 4-6 yaşlı uşaqlardır.

Bütün səhnə nümunələrinin quruluşu Dövlət Gənc Tamaşaçılar Teatrının rejissoru Elşad Rəhimzadə tərəfindən aparılıb. Nümunələr ATXİ-də təşkil olunan münsiflər heyəti tərəfindən baxış keçirilərək qiymətləndirilib.

İlk festivalın mükafatlandırma mərasimi uşaqların rəngarəng ifaları ilə də yadda qaldı. Seçilən nümunələrin hər birindən ən yaddaqalan səhnəciklər ittifaqın foyesində göstərildi. Həyəcan və sevinc hissləri üzgözlərinə hopan balacalar tanınmış səhnə xadimləri, teatrımızın populyar simaları qarşısında məharətlə çıxış etdilər.

Sonra tədbir seçilən qrupların və onların yetirmələrinin mükafatlandırılması ilə davam etdi.

ATXİ-nin sədr müavini, Xalq artisti Hacı İsmayılov, Xalq artisti İlham Namiq Kamal, Əməkdar artistlər Rasim Cəfər, Elnur Hüseynov və başqa çıxış edənlər balacaların teatra, sənətə sevgi ilə böyüməsində, teatra maraqlı tamaşaçı kimi yetişməsində bu kimi tədbirlərin xüsusi əhəmiyyətə malik olduğunu dedilər, təşkilatçılara təşəkkür etdilər.

Sonra müvafiq nominasiyalar üzrə qiymətləndirmə oldu. "Ən yaxşı tamaşa nümayişi", "İlin aktyoru", "İlin aktrisası" nominasiyalarında kollektivlər və azyaşlılar fəxri fərmanlarla təltif olundular.

**H.Rüstəmova**

# "Nəbati, əl çəkən kimdir vəfadan..."

XIX əsr Azərbaycan poeziyasını yeni ideya-məzmun və bədii sənətkarlıq keyfiyyətləri ilə zənginləşdirən söz sənətkarlarından biri də Seyid Əbülqasım Nəbatidir. Görkəmli şair klassik poeziyadakı fəlsəfi-estetik axtarışları yeni dövr ədəbiyyatında uğurla davam etdirib. Şairi anadan olmasının 210 illiyi münasibətilə yada saldıq.



Seyid Əbülqasım Nəbati 1812-ci ildə Cənubi Azərbaycanın Qaradağ mahalının Üştibin kəndində ruhani ailəsində dünyaya göz açıb. İlk təhsilini atası Mir Yəhya Möhtərəmdən alıb. Klassik poeziyanı və Şərq təsəvvüf ideyalarını dərindən mənimsəyir. Atası ilə bərabər qələndərlik (dərviş, həqiqət axtaran filosof) edir. Azərbaycanın bir çox şəhər və kəndlərini piyada gəzir. Erkən çağlardan "Nəbati" (bitkiyə aid olan, bitkidən alınan) təxəllüsü ilə şeirlər yazır.

Qeyd edək ki, şairin "Nəbati" təxəllüsü Orta əsrlərdə Ərəbistan, İran və Turanda daha çox İslam ehkam və dəyərlərini təbliğ edən Nəbatilər tayfasının adı ilə bağlıdır. Əbülqasımın atası bu tayfanın tanınmış nümayəndəsi kimi Üştibində və yaxın mahallarda dərvişlik edib. Şair qoşmalarının birində bu haqda yazır:

*Meydani-eşq içrə səyirtdim atı,*
*Müxəssər eylədim Rumu, Heratı.*
*Möhtərəm oğluyam, adım Nəbati,*
*Zatımız Haşimi, əslimiz ərəb.*

Seyid Əbülqasım müridlər arasında nüfuz və hörmət qazanır. Üştibində mürşid olur və kəramət sahibi kimi tanınır. O, bundan sonra Əhər bölgəsinə gedir. Dövrünün görkəmli təriqətçisi Şeyx Mahmud Sihabəddinin məqbərə və ziyarətgahında guşənişinlik (zahidlik) edir. O daha sonra riyaziyyatla məşğul olur. Şair bir müddət dünya işlərindən kənarda qalır. Sufi həyatı keçirir, hücrədə tənha yaşamaqla haqq, həqiqət aləmində yetişərək gizli sirlərdən xəbərdar olmaq istəyir. Şair şeirlərinin birində guşənişinliyi belə ifadə edir:

*Guşeyi-vəhdət nə əcəb ca imiş,*
*Sirri-nihan onda hüveyda imiş.*

Yaradıcılığına diqqət yetirdikdə məlum olur ki, şair Şimali Azərbaycanın Qarabağ bölgəsində – Əsgəran, Qırçın, Ağdam, Hindarxda, həmçinin Salyan və Lənkəranda da olub. Bu yerlərin ədəbi-mədəni həyatını yaxından tanıyıb.

Çox səxavətli, mərd və nəcib bir insan kimi xarakterizə olunan Əbülqasım Nəbati Orta əsrlərin böyük mütəfəkkiri Nemətullah Vəli təriqətinin davamçılarından biri kimi tanınıb. Əsərlərində onun sufi-təriqət ideyalarını təbliğ edib. Nemətullahi təriqətinə görə Allaha çatmaq istəyən özünü (maddi aləmi) unutmalı, fənaya uğramalı və bu yolla haqqa qovuşmalıdır. Yalnız daxilən təmizlənib saflaşan insan "ənəlhəqq" deyib özünü haqqa çatmış hesab edə bilər.

Əbülqasım Nəbati dünyagörüşü və həyata baxışı etibarilə ziddiyyətli bir insan olub. Bir dinə qail olmayıb. Əvvəl İslamı, sonra da atəşpərəstliyi təqdir edib. Bəzən də xristian olduğunu, xaça sitayiş etdiyini söyləyib. Şeirlərinin birində yollar ayrıcında qaldığını, gerçək həyatı və varlığı dərk edə bilmədiyini etiraf edib:

*Gah ağıllı, gah divanə oldum,*
*Gah abad, gah viranə oldum,*
*Gah xərabat içində sufi,*
*Gah da meyxanə süpürgəçisi oldum...*

Nəbati ömrünün müdrik çağlarında "Künci-vəhdətdə təbah oldu əziz ömrüm, heyf", – deyə sufiyanə ömür sürməsinə təəssüflənir. Şair həyatın mənası, dünyanın əvvəl-axırı haqqında çox düşünür. Ancaq yaradılışın gizli sirlərindən xəbərsiz qalır. Bunu özü də çox yaxşı başa düşdüyü üçün bir şeirində yazır:

*Yetdi ömrüm axirə, sən bir Nəbati bilmədin,*
*Kimdi bu gözdən baxan,*
*ya dildə bu guya nədir?*
*Od tutub canım sərasər yandı,*
*amma bilmədim*
*Dil nədir, dilbər nədir,*
*başımda bu sevda nədir?*

Nəbati keşməkeşli həyatında qarşılaşdığı çətinlikləri dəf etməyə cəhd etsə də, gücü yetmir. Gücsüzlüyündən məyus olur və kədərlənir. Bu əhvalını lirik qəhrəmanının dilindən belə deyir:

*Nə müddətdir məni-biçarə, yarəb,*
*yarsız qaldım,*
*Pozuldu rövnəqim, dağıldı ev,*
*pərgarsız qaldım.*
*Kimə izhar edim dərdim,*
*hanı bir məhrəmi-əsrar?*
*Qəmim çox, qəmküsarım yox,*
*əcəb qəmxarsız qaldım...*

Şair klassik şeirlə yanaşı, heca vəznində, xalq ruhunda da bədii nümunələr qələmə alıb. Bu qəbildən şeirlərinin əsas ideya xəttini isə məhəbbət və gözəlin tərənnümü təşkil edir. Müəllif sevən gəncin hiss və duyğularını ustalıqla dilə gətirir. Onun lirik qəhrəmanı həqiqi məhəbbət yolunda əzab-əziyyəti təbii sayır:

*Aşiq olan xof eləməz bəladan,*
*İncimaz yar edən cövrü cəfadan,*
*Nəbati, əl çəkən kimdir vəfadan?*
*Qoymuşam başımı mən bu meydanə!*

Şair bir çox qoşma və gəraylılarında gözəli tərənnüm edərkən bədii ifadə vasitələrindən ustalıqla istifadə edir: "Yaradıb" rədifli gəraylısında gözəlin sanki portretini çəkib:

*Maşallah, qadir Allah*
*Gör necə dilbər yaradıb!*
*Gül üzündə əfşan-əfşan*
*Zülfi-müənbər yaradıb.*

*Ağzı qönçə, ləbi püstə*
*Beli incə, boyu bəstə,*
*Tökülübdür dəstə-dəstə,*
*Nə gözəl tellər yaradıb!*

Nəbati məşhur "Gəlsin, gəlməsin?" rədifli qoşmasını isə sevgilisindən ayrı düşən aşiqə həsr edib. Onun mənəvi aləminə işıq tutub. Şeir Səbaya (səhər mehinə) müraciətlə başlanır: özünü "hicran düşkünü", "illər xəstəsi" adlandıran aşiq Səba vasitəsilə yarına xəbər göndərir. Onunla barışmaq istədiyini bildirir. Şeirin bütün bəndlərində aşiqin səmimiyyəti göz önünə gəlir. Şeirin möhürbəndində deyilir:

*Nəbati istəməz onsuz dünyanı,*
*İzzəti, hörməti, şövkəti, şanı,*
*Bir zada qalmayıb daha gümanı,*
*Bu baş o meydanə gəlsin, gəlməsin?*

Şairin "Gözlərin", "Olur", "Döndü", "Ey sənəm", "Məndən", "Genə" rədifli qoşmalarında da təmiz məhəbbətlə sevən gəncin mənəvi dünyası, hiss və duyğuları həssaslıqla təsvir edilir.

Ana dili ilə yanaşı, fars dilində də yazıb-yaradan Seyid Əbülqasım Nəbatinin əsərləri hələ öz sağlığında divan şəklinə salınıb, Təbrizdə daşbasma üsulu ilə çap olunub. Şair 1873-cü ildə vəfat edib.

**Savalan Fərəcov**

## Xatirə təqvimi — 8-10 iyun

### Azərbaycan

**8 iyun 1885** – Arxeoloq Davud Mikayıl oğlu Şərifov (1885-1952) Tiflisdə doğulub. Azərbaycan Dövlət Tarix Muzeyinin müdiri olub, arxeoloji materiallar əsasında "Bizim mədəni irsimiz" adlı dərs vəsaiti yazıb.

**8 iyun 1900** – Heykəltəraş İbrahim Hilal oğlu Quliyev (1900-1938) anadan olub.

**8 iyun 1981** – Azərbaycanın ilk professional qadın opera müğənnisi, SSRİ Xalq artisti Şövkət Həsən qızı Məmmədova (18.4.1897 – 1981) vəfat edib. Milan Konservatoriyasında təhsil alıb. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**9 iyun 1930** – Əməkdar incəsənət xadimi, bəstəkar Telman Hacı oğlu Hacıyev (1930 – 5.1.1991) anadan olub. "Göygöl", "Lalələr", "Tələbəlik illəri" və s. populyar mahnıların müəllifidir.

**9 iyun 1960** – Tanınmış rəssam Ucal Həsən oğlu Haqverdiyev (1960-2004) Bakıda anadan olub. Əsərləri Fransa, Avstriya, Almaniya, Türkiyə və s. ölkələrdə sərgilənib.

**9 iyun 1984** – Naxçıvanda böyük şair-dramaturq Hüseyn Cavidin Ev-Muzeyi açılıb.

**9 iyun 1989** – Görkəmli müğənni, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Rəşid Məcid oğlu Behbudov (14.12.1915 – 1989) vəfat edib. "Arşın mal alan" (1945), "Bəxtiyar" (1955) filmlərində baş rollara çəkilib. Mahnı Teatrını yaradıb.

**9 iyun 2002** – Rusiyanın Sankt-Peterburq şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin (heykəltəraş – Əməkdar rəssam Görüş Babayev) açılışı keçirilib. Mərasimdə Azərbaycan və Rusiya prezidentləri Heydər Əliyev və Vladimir Putin iştirak ediblər.

**9 iyun 2021** – Xalq artisti, aktyor, kinorejissor Ramiz Hacıağa oğlu Əzizbəyli (20.7.1948 – 2021) vəfat edib. "Bəxt üzüyü", "Yalan" bədii filmlərinə quruluş verib.

**10 iyun 1904** – Ədəbiyyatşünas, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, akademik Məmməd Arif (Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə; 1904 – 27.12.1975) anadan olub. Elmi tədqiqatlarla yanaşı, şeir və hekayələrin də müəllifidir.

**10 iyun 1910** – Əməkdar artist Anatoli Semyonoviç Urvantsev (1910-1971) anadan olub. Akademik Opera və Balet Teatrının balet artisti olub, Bakı Xoreoqrafiya Məktəbində dərs deyib.

**10 iyun 1933** – Xalq rəssamı Rafiq Mahmud oğlu Mehdiyev (1933 – 28.11.2009) Naxçıvan MR Şahbuz rayonunda anadan olub. Kitab və dəzgah qrafikası sahəsində çalışıb, həmçinin rəngkarlıq əsərlərinin müəllifidir.

**10 iyun 1938** – Şair, tərcüməçi Əli Vəkil (Əli Vəkil oğlu Səfiyev; 1938 – 7.1.2022) Ermənistanın Basarkeçər (indiki Vardenis) rayonunun Yuxarı Şorca kəndində anadan olub.

**10 iyun 1959** – Azərbaycan SSR Nazirlər Soveti "Azərbaycan SSR-də xalça və xalça məmulatı istehsalını daha da artırmaq və keyfiyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edib.

**10 iyun 1982** – Bakıda Azərbaycan professional vokal məktəbinin banisi Bülbülün Xatirə Muzeyi açılıb. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə iştirak edib.

**10 iyun 1983** – Xalq artisti, bəstəkar, dirijor, pedaqoq Səid Əli oğlu Rüstəmov (12.5.1912 – 1983) vəfat edib.

**10 iyun 1989** – Xalq şairi, dramaturq, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rüstəm (Süleyman Əliabbas oğlu Rüstəmzadə; 12.3.1906 – 1989) vəfat edib.

### Dünya

**8 iyun 1810** – Alman bəstəkarı, musiqişünas, pedaqoq Robert Şuman (Robert Schumann; 1810 – 29.7.1856) anadan olub. Simfoniya, sonata, konsert və digər musiqi əsərlərinin müəllifidir.

**8 iyun 1837** – Rus rəssamı İvan Kramskoy (1837-1887) anadan olub. Tarixi və portret janrında əsərlərin, məşhur "Naməlum qadın" rəsminin müəllifidir.

**8 iyun 1916** – İtalyan kinorejissoru Luici Komençini (Luigi Comencini; 1916-2005) anadan olub. Komediya janrında filmlər ("Çörək, məhəbbət və fantaziya", "Romalı gözəlçə") çəkib.

**9 iyun 1870** - Görkəmli ingilis yazıçısı Çarlz Dikkens (Charles John Huffam Dickens; 7.2.1812-1870) vəfat edib. Əsərləri: "Oliver Tvistin macəraları", "Devid Kopperfild" və s.

**9 iyun 1891** – Amerika bəstəkarı, çoxsaylı müzikllər müəllifi Koul Porter (Cole Porter; 1891-1964) anadan olub.

**10 iyun 1819** – Fransız rəssamı Jan Dezire Qustav Kurbe (Jean-Desire-Gustave Courbet; 1819-1877) anadan olub.

**10 iyun 1915** – Yəhudi əsilli Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1976) laureatı Sol (Solomon) Bellou (Saul Bellow; 1915-2005) anadan olub. Əsərləri: "Yerlə göy arasında", "Qurban", "Yağışlar hökmdarı Henderson", "Hersoq", "Oğru" və s.

**10 iyun 1929** – Rus müğənnisi, SSRİ-nin, Rusiyanın və Azərbaycanın Xalq artisti Lyudmila Georgiyevna Zıkina (1929-2009) anadan olub.

**10 iyun 2008** – Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov (12.12.1928 - 2008) vəfat edib. "Cəmilə", "Əlvida, Gülsarı!", "Ağ gəmi", "Əsrə bərabər gün", "Edam kötüyü", "Dağlar düşəndə" və s. əsərlərin müəllifidir.

**Hazırladı: Vüqar Orxan**

# Azərbaycanın UNESCO-ya üzvlüyünün 30 illiyi münasibətilə virtual sərgi

BMT-nin ixtisaslaşmış təşkilatı olan UNESCO dünyada təhsil, elm, mədəniyyət, informasiya və kommunikasiya sahəsində əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. Təşkilatın nizamnaməsi 16 noyabr 1945-ci ildə Londonda imzalanıb, 4 noyabr 1946-cı ildə UNESCO rəsmən fəaliyyətinə başlayıb.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra 3 iyun 1992-ci il tarixində UNESCO-ya üzv qəbul edilib. UNESCO-nun nizamnaməsinə görə, üzv-dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini UNESCO-nun işi ilə əlaqələndirmək üçün, ilk növbədə, Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Prezident Heydər Əliyev 21 fevral 1994-cü il tarixində UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yaradılması ilə bağlı sərəncam imzalamış, bu istiqamətdə lazımi addımlar atılmışdı. Bu gün Azərbaycanla UNESCO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Azərbaycanın maddi və mənəvi irs nümunələrinin UNESCO-nun müvafiq siyahılarına daxil edilməsi də bu əməkdaşlığın mühüm göstəriciləridir.

Azərbaycanın UNESCO-ya üzv qəbul edilməsinin 30 illiyi münasibətilə Milli Kitabxananın əməkdaşları tərəfindən virtual sərgi hazırlanıb.

Virtual sərgidə fotolar, UNESCO-nun siyahılarına daxil edilən Azərbaycan maddi və mənəvi irsinin nümunələri, mövzu ilə əlaqəli kitablar və dövri mətbuat səhifələrində dərc olunan məqalələr nümayiş olunur.

# Mirzə Fətəlinin 210 illiyi Ankarada qeyd edilib

Bu il Azərbaycanda və Türk dünyasında dramaturgiyanın banisi, mütəfəkkir ədib Mirzə Fətəli Axundzadənin (1812-1878) anadan olmasının 210 illiyidir. İyunun 2-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, Ankara Universiteti, Azərbaycanın Türkiyədəki Səfirliyi və digər qurumların birgə təşkilatçılığı ilə M.F.Axundzadənin yubileyinə həsr olunan konfrans keçirilib.



Ankara Universitetinin Dil, tarix və coğrafiya fakültəsi Çağdaş türk ləhcələri və ədəbiyyatı bölməsi tərəfindən təşkil edilən 10-cu "Türkologiya günü" tədbirləri çərçivəsində gerçəkləşən tədbirdə universitetin dekanı Levent Kayapınar, TÜRKSOY Baş katibinin müavini Bilal Çakıcı, tanınmış alimlər Səma Burutcu Özöndər və Mehmet Rza Heyət çıxış ediblər.

Bilal Çakıcı çıxışında diqqətə çatdırıb ki, mütəfəkkir ədibin 200 illiyi şərəfinə 2012-ci il TÜRKSOY tərəfindən "Axundzadə İli" elan edilmiş və bu çərçivədə təşkilata üzv ölkələrdə müxtəlif tədbirlər təşkil olunmuş, əsərləri Türkiyə və Qazaxıstanda səhnələşdirilmişdi.

Sonra Ankara Universiteti tələbələrinin ifasında Əbdürrəhim bəy Haqverdiyevin Mirzə Fətəliyə həsr etdiyi "Xəyalat" pyesinin tamaşası oynanılıb. Tələbə aktyorların rəhbəri Atabəy Barış tərəfindən türk dilinə uyğunlaşdırılan və onun rejissorluğu ilə səhnələşdirilən tamaşanın koordinatoru Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlıdır.

Tamaşadan sonra ölkəmizdən tədqiqatçılar Cavid Mövsümlü və Dilqəm Əhməd böyük ədibin həyat və yaradıcılığından bəhs ediblər.

Qeyd edək ki, Ə.Haqverdiyev birpərdəli "Xəyalat" pyesini özünə ustad bildiyi M.F.Axundzadənin 100 illik yubileyi münasibətilə 1911-ci ildə qələmə alıb. Pyesdə M.F.Axundzadə ilə onun ölməz komediyalarının qəhrəmanları Hatəmxan ağa, Hacı Qara, dərviş Məstəli şah, Molla İbrahimxəlil və başqaları qarşılaşdırılır, mütəfəkkir-ədibin öz dövründə necə qiymətləndirildiyi və necə ağır şəraitdə yazıb-yaratdığı göstərilir.

**Mehparə Sultanova**
**Ankara**

# Azərbaycanın ilk süni intellekti "Şuşa" İstanbul rəqəmsal incəsənət festivalında

## Kompozisiya Mədəniyyət Nazirliyinin dəstəyi ilə ərsəyə gəlib




*əvvəli səh. 1-də*

Baş konsul Nərminə Mustafayeva deyib: "Şuşa azərbaycanlılar üçün çox özəldir, bizim qəlbimizdə xüsusi yeri var. Necə ki, Azərbaycanı Qarabağsız təsəvvür etmək olmaz, elə də təbii ki, Qarabağı Şuşasız təsəvvür etmək mümkünsüzdür. Bizim bir çox dahi şəxsiyyətlərimiz, sənətçilərimiz, bəstəkarlarımız, şair və yazıçılarımız, eləcə də tarixi şəxsiyyətlərimiz Şuşanı bizə miras olaraq qoyublar. Ümid edirəm ki, bu festivalda təqdim olunan "Şuşa" kompozisiyası Şuşanın ruhunu özündə əks etdirə biləcək".

Ümumilikdə 13 süni intellektin iştirak etdiyi festivalda animasiyalar üzərinə səsli və hərəkətli canlandırma, insan hərəkətlərini rəqəmsal dillə izah edən proqramlaşdırma, modelləşdirmə, incəsənət, foto və videoqrafiya, habelə texnoloji üstünlüklərin idarəedilməsində süni intellektin rolundan bəhs edən stendlər qurulub.

"Şuşanın tanıdılmasında iştirak etmək qürurverici və şərəflidir" – bu sözləri "İDSF-22" Beynəlxalq Rəqəmsal İncəsənət Festivalının təşkilatçılarından "Mezo" Rəqəmsal İncəsənət Qrupu idarə heyətinin sədri Nabat Qaraxanova deyib.

Kompozisiyanın hazırlanmasına göstərilən köməkliyə görə Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkürünü ifadə edən Nabat Qaraxanova diqqətə çatdırıb ki, layihə bir ilə yaxın müddətdə ərsəyə gəlib: "Kompozisiya Mədəniyyət Nazirliyinin bizə təqdim etdiyi informasiya, şəkil, musiqi kimi nümunələr əsasında hazırlanıb. Bütün bu nümunələr "Şuşa" süni intellektinin alqoritminə yüklənib. "Şuşa" kompozisiyasında Azərbaycan, Qarabağ xalçaları rəqəmsal aləmdə toxunub milli musiqimizlə bir arada ictimaiyyətə təqdim edilir. Burada nümayiş olunan 13 əsər arasında "Şuşa" solo nümayişini etdi...".

# "Açma-yumma"dan "Pazırıq" naxışlarınadək

## Xalça elementləri əsasında hazırlanan geyim kolleksiyasının təqdimatı

Tanınmış azərbaycanlı modelyer, "AFFFAİR" markasının təsisçisi Rüfət İsmayılın qədim xalça çeşniləri – "Açma-yumma", "Qarabağ", "Naxçıvan", "Ovçuluq", "Pazırıq" xalçalarının elementləri əsasında hazırladığı "Sumakh" geyim kolleksiyası iyunun 3-də Heydər Əliyev Mərkəzində nümayiş etdirilib.




Azərbaycanın qədim və zəngin tarixə malik xalçaçılıq sənəti zaman-zaman yeni ideyaların, sənət nümunələrinin yaranmasına təkan verib. UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilən Azərbaycanın ənənəvi xalçaçılıq sənəti bu gün də yeni layihələrdə zövqləri oxşayır. Heydər Əliyev Fondunun dəstəyi ilə dizayner-modelyer Rüfət İsmayılın Azərbaycan xalçalarının motivləri, zəngin rəngləri və naxışlarından bəhrələnərək yaratdığı "Sumakh" kolleksiyası da bu baxımdan diqqət çəkir.



Rüfət İsmayılın kolleksiyası üzrə geyimlər "Azərxalça"nın emalatxanalarında toxunub. Layihənin yaranması barədə danışan "Azərxalça" ASC-nin sədri Emin Məmmədov bildirib ki, sənətin digər növləri ilə yanaşı xalçaçılıq da inkişaf etməlidir. Ona görə də biz tanınmış rəssamlar, konseptual dizaynerlərlə əməkdaşlıq qurub yeni əl sənəti yaradırıq və bununla da xalçaçılıq sənətini, mədəni irsimizi yaşadırıq.

"AFFFAİR in Carpets" adlı dəfilədə "Sumakh Haute Couture" və "Sumakh Affordable Luxury" kolleksiyasından geyimlər nümayiş olunub. Qeyd edək ki, "Sumakh Haute Couture" bu günədək Paris və Moskvada təqdim edilib. "Sumakh Affordable Luxury" kolleksiyasının ilk nümayişi isə Bakıda olub.

Kolleksiyaya daxil olan 5 məşhur xalça motivi əsasında yaradılan əsərlər xüsusən diqqət çəkir. "Açma-yumma" xalçası Qarabağ xalçaları arasında bədii xüsusiyyətləri ilə fərqlənir və təqdim olunan kolleksiyada bu xalça silsiləsindən naxışlar əksini tapıb.

Gözəlliyi ilə fərqlənən daha bir əsərin elementləri "Qarabağ" xalçasından qaynaqlanıb. İlk baxışdan təkrar elementlərdən ibarət olan həmin kompozisiya sıralanaraq kəhkəşana qərq olur.

"Naxçıvan" adlı əsər Qarabağ xalçaçılıq məktəbinin nümunəsi olan xalçanın müxtəlif elementlərindən, o cümlədən "Xətai" və "Çələbi" xalçalarının naxışlarından da istifadə olunaraq yeni bədii kompozisiya əsasında yaranıb.

Qarabağın "Ovçuluq" xalçalarına aid olunan elementlərin gözəlliyindən ruhlanan rəssam Azərbaycan və Yaxın Şərq sənətkarlıq məktəblərində geniş yer tapmış "Bəndi-Rumi" kompozisiyasının elementlərindən istifadə edərək şəbəkə tərkibli bədii kompozisiyanı yaradıb.

"Pazırıq" adlanan geyim dünyanın ən qədim xalçası sayılan (2500 il), Rusiyanın Sankt-Peterburq şəhərindəki Dövlət Ermitaj Muzeyində saxlanılan eyniadlı xalçanın mərkəzi elementlərindən qaynaqlanıb.

Azərbaycan xalçalarından ruhlanaraq ərsəyə gələn layihənin məqsədi həm də mədəni irsimizi müasir istiqamətlərdə yaşatmaqdır.

# Ölkəmiz Praqada "Səfirliklər Festivalı"nda təmsil olunub




Çexiyanın paytaxtı Praqada keçirilən "Səfirliklər Festivalı"nda Azərbaycan da təmsil olunub. Festivalda Çexiyada akkreditə olunmuş 40-dan artıq ölkənin səfirlikləri və bir sıra yerli şirkətlər iştirak ediblər.

Tədbirin əvvəlində şəhər meriyasının rəhbərliyi və iştirakçı ölkələrin səfirləri qonaqları salamlayıb və stendlərə baxıblar. Musiqi, əyləncə, fərqli mədəniyyətlər və kulinariya nemətlərinin bir araya gəldiyi festival yerli əhali və qonaqlar tərəfindən maraqla qarşılanıb.

Azərbaycanın Çexiyadakı Səfirliyi tərəfindən təşkil edilən stenddə milli geyimlərimiz, albomlar, kiçik xalçalar, milli mətbəximizə məxsus xörək və şirniyyatlar, habelə "Made in Azerbaijan" brendi ilə istehsal olunan konserv, şirə və şərablar nümayiş etdirilib.

Milli mətbəx nümunələri Çexiyada iaşə sahəsində fəaliyyət göstərən azərbaycanlı iş adamları tərəfindən təqdim olunub.

Praqada yaşayan gənc azərbaycanlı Kamilla Əskərovanın ifasında "Sarı gəlin" və "Uzundərə" rəqsləri ziyarətçilər tərəfindən alqışlarla qarşılanıb.

Səfirliyin əməkdaşları stendin ziyarətçilərinə ölkəmiz, milli mədəniyyətimiz, eləcə də Azərbaycanın turizm imkanları haqqında məlumat veriblər.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 534 il əvvəl...

**9 iyun 1488-ci ildə** Şahdağ ətəyində Şirvanşahların birləşmiş qüvvələri ilə Qızılbaş (Səfəvi) qoşunları arasında döyüş olub. Döyüşdə Şirvanşahların qoşunları qalib gəlib, Qızılbaşların rəhbəri Şeyx Heydər həlak olub. Bir neçə ildən sonra onun oğlu İsmayıl taxta çıxdı və qüdrətli Azərbaycan Səfəvi dövlətinin əsasını qoydu.

### 418 il əvvəl...

**8 iyun 1604-cü ildə** növbəti Səfəvi-Osmanlı müharibəsi (1603-1612) gedişində I Şah Abbasın qoşunları İrəvan qalasını ələ keçirib. Osmanlının nəzarətindən çıxan İrəvanın idarəçiliyi Əmirgünə xan Qacara verilib. Bundan bir qədər əvvəl Səfəvi qoşunları Təbrizi Osmanlıdan geri almışdı. 1580-ci illərdə tərəflər arasındakı müharibədə Azərbaycan əraziləri, demək olar ki, bütünlüklə (Talış bölgəsi və Ərdəbil istisna olmaqla) Osmanlının nəzarətinə keçmiş və bu, 1590-cı ildə İstanbul sülh müqaviləsində təsbit olunmuşdu.

### 207 il əvvəl...

**9 iyun 1815-ci ildə** Napoleonun süqutundan sonra başlanan (18 sentyabr 1814-cü il) və Avropada yeni geosiyasi mənzərəni müəyyənləşdirən Vyana Konqresi başa çatıb. Konqresin nəticələrinə əsasən, Polşa əraziləri tamamilə (onadək Rusiya və Prussiya arasında bölüşdürülmüşdü) Rusiyaya birləşdirildi, Niderland Krallığı və İsveçrə Konfederasiyası yaradıldı.

### 124 il əvvəl...

**9 iyun 1898-ci ildə** Böyük Britaniya ilə Çin arasında "Syanqan konvensiyası" imzalanıb. Sazişə əsasən, Çin Syanqan (Honkonq) adasını 99 illiyə Britaniyaya icarəyə verib. 1984-cü ildə Londonla Pekin arasında imzalanan bəyannaməyə əsasən, Britaniya 1997-ci il iyunun 30-da adanı Çinə qaytardı. Honkonq azad iqtisadi zona statusu ilə Çinin inzibati ərazisi oldu.

### 93 il əvvəl...



**7 iyun 1929-cu ildə** Vatikan dövləti yaranıb. Roma şəhərinin Monte-Vatikano adlanan hissəsində müstəqil Vatikan dövlətinin (Stato della Città del Vaticano) yaranmasına dair həmin ilin 11 fevralında İtaliya hökuməti ilə "Lateran sazişi" imzalanmışdı. 7 iyunda İtaliya ilə Vatikan arasında diplomatik etimadnamə mübadiləsi oldu və saziş qüvvəyə mindi. Dünya katoliklərinin rəhbəri Papa eyni zamanda Vatikan dövlətinin başçısı oldu. Ərazisi cəmisi 44 hektar, əhalisi isə min nəfərə yaxın olan Vatikan müvafiq dövlət atributlarına malikdir, dünyanın əksər ölkələri ilə diplomatik münasibətlər saxlayır.

### 80 il əvvəl...

**10 iyun 1942-ci ildə** alman faşist qoşunları Çexiyanın Liditse qəsəbəsində qətliam həyata keçiriblər. Qəsəbədəki faşist idarəçisinin öldürülməsinə cavab olaraq qəsəbənin bütün kişi əhalisi (172 nəfər) güllələnib. 200-dək qadın və uşaq isə konslagerə göndərilmiş və onların təxminən yarısı da orada öldürülmüşdü. Müharibədən sonra Liditsedə memorial muzey yaradıldı, yaxınlıqda isə eyniadlı yeni qəsəbə salındı.

### 78 il əvvəl...



**10 iyun 1944-cü ildə** Almaniyanın işğalçı qoşunları Fransanın Oradur-sür-Qlan qəsəbəsində də kütləvi qətliam törədiblər. Qəsəbənin kişi əhalisi güllələnib, qadın, uşaq və qocalar isə kilsəyə yığılaraq partladılıb. Ümumilikdə qəsəbənin 640-dək sakini qətlə yetirilmişdi. Müharibədən sonra qəsəbə bərpa edilmədi və xarabalıqlar açıq səma altında xatirə muzeyinə çevrildi. Yaxınlıqda isə eyniadlı yeni qəsəbə inşa edildi.

### 30 il əvvəl...

**9 iyun 1992-ci ildə** Azərbaycan Pakistan İslam Respublikası və Türkmənistanla diplomatik münasibətlər qurub.

### 29 il əvvəl...

**9 iyun 1993-cü ildə** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Prezident Əbülfəz Elçibəyin dəvəti ilə Bakıya gəlib. Gəncə hadisələri (4 iyun) ilə iflas etmiş Xalq Cəbhəsi iqtidarı Heydər Əliyevdən qiyamçı polkovnik Surət Hüseynovla danışıqlar aparmağı və böhranı sahmanlamağı xahiş edib.

Həmin gün Milli Məclis Gəncədəki qiyamda iştirak etmiş şəxslərə amnistiya verilməsi və hadisələrin araşdırılması üçün deputat-istintaq komissiyasının yaradılması haqqında qərarlar qəbul edib.

**Hazırladı: V.Orxan**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1634
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641